HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# YENİ YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “გზა” საზოგადოებრივი გაზეთი | №001 (01) | 17 iyun 2015-ci il

## BAKIDA I AVROPA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ OLDU



Azərbaycanın paytaxtı Bakının ev sahibliyi etdiyi və ilk dəfə təşkil olunan I Avropa Oyunları 68 min tamaşaçı tutan Bakı Milli Olimiya Stadionunda reallaşdırılan açılış mərasimilə başladı.

Azərbaycanın görkəmli muğam ustası Alim Qasımovun “Sarı gəlin” mahnısı və ənənəvi muğam oxuması ilə başlayan mərasimin açılışı 50 nağaranın müşayiətində, ölkənin müstəqillik illərini göstərən 24 sayından geri sayımla həyata keçirildi.

Daha sonra səhnəyə çıxan təxminən min rəqqas, Azərbaycana məxsus xalça sənəti motivlərinin təqdim edildiyi xoreoqrafiya ilə gerçəkləşdirildi. Onların öz geyimləri ilə yaratdıqları Azərbaycan bayrağı, stadionu ağızınacan dolduran tamaşaçıların böyük alqışlarına səbəb oldu.

Açılış mərasimiAzərbaycan Himninin ifası və Azərbaycan bayrağının qaldırılması ilə davam etdi.

Bakıdakı tarixi Atəşgah abidəsində Azərbaycan prezidenti İlham Əliyev tərəfindən 26 apreldə yandırılan məşəl, ölkənin bütün bölgələrindən keçməklə 5 min 500 kilometrlik məsafəni qət edərək, Azərbaycan paraolimpiya çempionu, Qarabağ qazisi İlham Zəkiyev tərəfindən stadiona gətirildi və oyunların başlanmasına start verildi.

İlk dəfə Azərbaycanda gerçəkləşdirilən I Avropa Oyunlarında 50 ölkədən təxminən 6 min idmançı 20 növ üzrə yarışacaq.

Dörd ildə bir təşkil edilməsi planlanlaşdırılan Avropa oyunları idmançılar üçün 2016-cı il yay Olimpya oyunlarından qabaq bir sınaq imtahanı olacaq. İdmanın müxtəlif sahələrində birincilik əldə edən qaliblər olimpiya oyunlarında birbaşa iştirak hüququ, bəzi sahələrdə isə təsnifat balı yığacaq.

Bakıda 5 yeni, 7 yenilənən, 6 müvəqqəti inşa olunan 18 idman kompleksində baş tutacaq I Avropa oyunlarını 800 xarici, 700 yerli jurnalistin işıqlandırması gözlənilir. Oyunların açılış mərasimindən hazırlanan xəbərlər dünyanın aparıcı kütləvi informasiya vasitələrinin baş xəbərinə çevrilmişdir.

I Avropa oyunlarının açılış mərasimində dünyanın bir sıra ölkələrinin dövlət və hökumət başçıları da iştirak etmişlər.

Azərbaycanın ev sahibliyi etdiyi I Avropa oyunları 17 gün davam edəcək və iyunun 28-də başa çatacaq.

Baku 2015
1st EUROPEAN GAMES

## LEYSAN YAĞIŞLAR TBİLİSİDƏ BÖYÜK FƏSADLAR TÖRƏDİB



Tbilisinin mərkəzindən axan Vera çayının daşması nəticəsində yollara, Kür çayı boyunca uzanan prospekt və küçələrə, həmçinin dövlət və bir sıra şirkətlərin ofis və obyektlərinə, binaların birinci mərtəbəsinə sel suları dolub, yollar çöküb, torpaq sürüşməsi baş verib.

Artıq Vake-Saburtalo ərazisində fəsadlar aradan qaldırılır, həmçinin zooparkın mütəxəssisləri Tbilisi və onun ətrafına qaçan vəhşi heyvanları tutmaqla məşğuldurlar. Zoopark rəhbərliyinin bildirdiyinə görə, hazırda Tiflisin küçələrindən 17 vəhşi heyvan tutulub.

Məlumata görə, Vera çayının daşması nəticəsində 15 nəfər Gürcüstan vətəndaşı boğularaq ölüb və yenə də axtarış tədbirləri davam etdirilir. Ümumilikdə 24 nəfərin itkin düşdüyü bildirilir. Fəlakət nəticəsində evsiz qalan ailələr isə otellərə və digər hazır evlərə köçürülüb.

Gürcüstan hökuməti bütün vacib dövlət tədbirlərini təxirə salaraq, fəlakətin fəsadlarını aradan qaldırılmasını təşkil edir. Hökumət şəhər meriyasına fəsadları aradan qaldırmaq üçün ilk mərhələdə 10 milyon lari ayırıb. TBS-Bank bu gün fəlakət nəticəsində xəsarət alan hər bir Gürcüstan vətəndaşına 50 min lari yardım etməyi qərara alıb. Bank bu vacib köməyə şirkətlərin və vətəndaşların da qoşulması üçün çağırış edib.

Gürcüstanın Maliyyə Naziri Nodar Xaduri bildirib ki, daşqınlar zamanı ilkin hesablamalara görə, 40 milyon lari maddi ziyan dəyib və yenə də dəqiq hesablamalar aparılır.

Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin sərəncamına əsasən, fəsadların aradan qaldırılması üçün Fövqəladə Qərargah yaradılıb və qərargahda tez-tez həyata keçirilən məsələlər müzakirə olunur. Fəsadların aradan qaldırılması üçün Dövlət təhlükəsizliyi və böhranların idarə edilməsi Şurası bütün işləri tənzimləyir.

Baş vermiş təbii fəlakətin fəsadlarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə Gürcüstanın azərbaycanlı ictimaiyyəti də yaxından iştirak edir. Azərbaycanlılara məxsus ictimai təşkilatların nümayəndələri ölkəmizin bu ağır günlərində gürcülərlə çiyin-çiyinə çalışırlar. Azərbaycanlı gənclər və dini təşkilatların nümayəndələri, tələbələr əllərindən gələn köməyi əsirgəmirlər. Qəzetimiz çapa hazırlanarkən, azərbaycanlıların yaşadıqları bölgələrdən təbii fəlakətdən zərər görmüş insanlara yardım tədbirləri davam etməkdədir.

Dünyanın müxtəlif ölkələrindən Gürcüstana başsağlığı teleqramları gəlməkdədir. Gürcüstan hökuməti iyunun 15-ni matəm günü elan edib.


səh. 2 — BİZ NİYƏ “YENİ YOL”ÇU OLMAQ İSTƏYİRİK / KOSALI MƏKTƏBİNDƏ MƏZUNLARLA ƏNƏNƏVİ GÖRÜŞ KEÇİRİLMİŞDİR

səh. 3 — İRAKLİ BANDZELADZE: AGFM İLK AZƏRBAYCANDİLLİ GÜRCÜ RADİOSUDUR

səh. 4 — İQTİSADİ BÖHRAN FONUNDA ÜMİD İŞARTILARI

səh. 5 — SEPARATİZM BÖYÜK DÖVLƏTLƏRİN TƏZYİQ VASİTƏSİ KİMİ / SAFLIQ – SFİNKSDƏN QURTULMANIN TƏK YOLU

səh. 6 — MÜSƏLMANLARIN MÜQƏDDƏS RAMAZAN AYI BAŞLAYIR / İNSAN HƏYATƏNDA DİN

səh. 7 — GƏNCLİK ÖZ İXTİSASINI SEÇİR / KİTAB – BİZİM SIĞINA BİLƏCƏYİMİZ DÜNYA

səh. 8 — TBİLİSİDƏ BEŞ ÖLKƏNİN YAZARLARININ GÖRÜŞÜ KEÇİRİLİB


## SOCAR TBİLİSİDƏ DAŞQINLARIN FƏSADLARINI ARADAN QALDIRMAĞA KÖMƏK ETDİ




SOCAR şirkətinin kollektivi də Tbilisidə güclü daşqınlar zamanı həlak olmuş insanların ailələrinə dərin hüznlə başsağlığı verərək, yaranan fəsadların aradan qaldırılmasına qoşulub.

Şirkət tərəfindən şəhər infrastrukturunun bərpası üçün 10 000 litr benzin ayrılıb. Bundan başqa, təbii fəlakət zamanı xəsarət alan ailələrə kömək üçün şirkət tərəfindən 50 000 lari ayrılıb və həmçinin SOCAR rəhbərliyi tərəfindən əhaliyə kömək üçün digər imkanlara da baxılacağı bildirilib.

## GÜRCÜSTANDA 226 NƏFƏR MƏHBUS ƏFV EDİLDİ

Gürcüstan prezidenti Qeorqi Marqvelaşvili 226 məhbusu əfv edib. Onlardan 180 nəfəri həbsxananı tərk edəcək. Bu barədə əfv üzrə dövlət komissiyasının sədri Zviad Koridze məlumat vermişdir.

Onun sözlərinə görə, cəmi 1329 məhbusun işinə baxılmış, onlardan 226 məhbusun bağışlanmasına müsbət rəy verilmişdir.

Koridze bildirmişdir: “226 məhbusdan həbsxananı 180 nəfər tərk edəcək ki, onlardan da 10-u qadın, biri isə yetkinlik yaşına çatmamışdır. Qalan 46 məhbusun həbs müddəti qısaldılmışdır ki, onlardan da 4-ü qadındır. Prezident tərəfindən qərar qəbul olunmuşdur. Qərarın qəbul olunması zamanı prezident əfv komissiyasının rəyini nəzərə almışdır. Komissiya bütövlükdə 1329 şəxsin işinə baxmışdır”.



Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

## BİZ NİYƏ "YENİ YOL"ÇU OLMAQ İSTƏYİRİK

Hər şeydən öncə biz sizinlə görüş yolunu tutduq. Siz dedikdə, əziz oxucular, elə biz də sizin bir parçanız deyilikmi? Sizinlə görüşə ona görə belə önəm veririk ki, sizin sevincinizi bölmək, kədərinizə ortaq çıxmaq niyyətindəyik. Budur bizim ən ali məqsədimiz. Sizli-bizli yaxşımızı-yamanımızı saf-çürük etməyi düşünürük, nəyimiz var ictimailəşdirmək, yaymaq istəyirik. Düşünürük ki, ayağımıza buxov olan problemlərdən yalnız birlikdə xilas olmaq mümkündür. Onu da düşünürük ki, pozitiv enerjimizi bir-birimizə ötürməyin vaxtı çoxdan çatıb. Fikrimizcə, neqativ, mənfi enerjiyə dur demək zamanıdır. Elə indidən dur deməmiz gərəkdir. Dünyamızı batdığı girdabdan sevgimizlə xilas edə bilərik. Qarşılıqlı itti-hamlardan, bəyənməməzlik sindromundan qurtarmaq üçün biz çoxmu zəhmətə qatlaşmalıyıq? Yox, canım, yox! Bunun üçün ürəyində azacıq istək, azacıq təpər olsa bəs edər, elə sanıram. Könlündən kini, qəzəbi, nifrəti çıxardınmı, düşüncəni təmizləyib paklaya bildinmi özün də, ətrafın da, yaşadığın gözəlim dünya da arınacaq və öz ilkinliyinə, təbiiliyinə qovuşacaq.

Niyə qəzetimizin adının "Yeni yol" olmasını istədik, niyə onlarla, bəlkə də yüzlərlə adın içərisindən bu adı seçdik? Hər şeydən öncə, biz iddialardan uzaqlığımızı, heç bir məkrli niyyətimizin olmadığını sərgiləmək niyyətilə bu sözün üstündə durduq. Dilimizdə yolla bağlı yüzlərlə deyimin olmasını, yolun müxtəlif məna yükünə, çox mənalılığa malik olmasını göz önünə gətirdik. Yolun fiziki, maddi və hətta maliyyə anlamları daşıdığını, eləcə də mənəvi-əxlaqi və hüquqi dəyərləri öz içərisinə almasını bildiyimizdən bu seçimin üstündə dayanmağı məqbul saydıq. Və bu dünyada insanı kamilliyə aparan bir yolun varlığına dərin inamımız da bu qərarımızın qətiləşməsində yardımçımız oldu. Üstəgəl, hərənin öz yolu var, hərə öz yolunun yolçusudur kimi fikirləri tez-tez eşitdiyimizdən bizim niyə öz yolumuz olmasın düşüncəsi ilə "Yeni yol" olmağı daha üstün tutduq. Seçdiyimiz yolun çətin olduğunu, çətin olduğu qədər də şərəfli olduğunu heç yaddan çıxarmamğı düşünürük. Nədən ki, ən azından qəzetçilik işinin bir məslək olmasına alın yazısı qədər inanırıq. "Yeni yol"la müəyyən bir yerə, müəyyən bir hədəfə çatacağımız düşüncəsi də işi ələ aldığımızdan bu yana bizi tərk etmədi. Əski dönəmlərdə insanların yolu qutlu saydıqları, ona and içdikləri, onu hər bir çirkabdan qorumaq istədikləri də bizə bəlli olduğundan seçimimizin uğurlu alındığına şübhə etmirik.

"Yeni yol"un uğur qazanması, haqdan sapmaması təkcə onu araya-ərsəyə gətirənlərdən asılı deyil fikrini bir an da olsa unutmadığımızı söyləməkdən də özümüzü saxlaya bilmirik. Çox dəyərli oxucular, sizin hər birinizin gözünüzün bizim, yəni "Yeni yol"un, "Yeni yol"çuların üstündə olacağı gümanı da, bizə əlavə bir stimul verir. Bizim yoloğluluğumuz, üzüyolalığımız heç də mütiliyimiz, mağmınlığımız, hər saza oynayan olmamız anlamına gəlməməlidir. Biz hər halımızla doğru yoldan çıxmayacağımızı, yolumuzdan azmayacağımızı da qafamıza taxmışıq. "Yeni yol"çular doğrunun, gerçəyin, ən ümdəsi isə haqqın yanında olmağı düşünürlər. İstənilən halda haqqın təntənəsinə, haqqın qələbəsinə kiçicik də olsa əl uzatmağı özlərinin insanlıq borcu hesab edirlər.

"Yeni yol" oxucusuna gərəkli olanı, vacib olanı verməyi düşünərək, yola çıxıb. Dünyamızda baş verən istənilən hadisəyə münasibət bildirməyi, regoionda gedən proseslərə ayna tutmağı, ölkəmizin ən kiçik uğurunu belə könül xoşluğu ilə oxucusunun evinə daşımağı öz üzərinə götürmək niyyətindədir. Gələcək saylarında önəmli yazıların gürcücə versiyasına səhifələrində yer ayırmağı, yəni blinqvistik üsulla fikirlərini çatdırmaq niyyətini də gizlətmir. Biz yaşlı nəslin təcrübəsinə dayanaraq, gəncliyin tribunasına çevrilməyi də hədəflərimizdən biri sayırıq. "Yeni yol" oxucusu ilə fikir mübadiləsi aparmağı, onun istənilən fikrinə, münasibətinə diqqət göstərməyi özünün adi iş prinsipi hesab edir. Hə, dəyərli oxucular, niyyətimiz bundan ibarətdir. İndi isə yolçu "Yeni yol"da gərək, yola çıxma zamanıdır.

## KOSALI MƏKTƏBİNDƏ MƏZUNLARLA ƏNƏNƏVİ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Hər şeydən öncə biz sizinlə görüş yolunu tutduq. Siz dedikdə, əziz oxucular, elə biz də sizin bir parçanız deyilikmi? Sizinlə görüşə ona görə belə önəm veririk ki, sizin sevincinizi bölmək, kədərinizə ortaq çıxmaq niyyətindəyik. Budur bizim ən ali məqsədimiz. Sizli-bizli yaxşımızı-yamanımızı saf-çürük etməyi düşünürük, nəyimiz var ictimailəşdirmək, yaymaq istəyirik. Düşünürük ki, ayağımıza buxov olan problemlərdən yalnız birlikdə xilas olmaq mümkündür. Onu da düşünürük ki, pozitiv enerjimizi bir-birimizə ötürməyin vaxtı çox-dan çatıb. Fikrimizcə, neqativ, mənfi enerjiyə dur demək zamanıdır. Elə indidən dur deməmiz gərəkdir. Dünyamızı batdığı girdabdan sevgimizlə xilas edə bilərik. Qarşılıqlı itti-hamlardan, bəyənməməzlik sindromundan qurtarmaq üçün biz çoxmu zəhmətə qatlaşmalıyıq? Yox, canım, yox! Bunun üçün ürəyində azacıq istək, azacıq təpər olsa bəs edər, elə sanıram. Könlündən kini, qəzəbi, nifrəti çıxardınmı, düşüncəni təmizləyib paklaya bildinmi özün də, ətrafın da, yaşadığın gözəlim dünya da arınacaq və öz ilkinliyinə, təbiiliyinə qovuşacaq.



Niyə qəzetimizin adının "Yeni yol" olmasını istədik, niyə onlarla, bəlkə də yüzlərlə adın içərisindən bu adı seçdik? Hər şeydən öncə, biz iddialardan uzaqlığımızı, heç bir məkrli niyyətimizin olmadığını sərgiləmək niyyətilə bu sözün üstündə durduq. Dilimizdə yolla bağlı yüzlərlə deyimin olmasını, yolun müxtəlif məna yükünə, çox mənalılığa malik olmasını göz önünə gətirdik. Yolun fiziki, maddi və hətta maliyyə anlamları daşıdığını, eləcə də mənəvi-əxlaqi və hüquqi dəyərləri öz içərisinə almasını bildiyimizdən bu seçimin üstündə dayanmağı məqbul saydıq. Və bu dünyada insanı kamilliyə aparan bir yolun varlığına dərin inamımız da bu qərarımızın qətiləşməsində yardımçımız oldu. Üstəgəl, hərənin öz yolu var, hərə öz yolunun yolçusudur kimi fikirləri tez-tez eşitdiyimizdən bizim niyə öz yolumuz olmasın düşüncəsi ilə "Yeni yol" olmağı daha üstün tutduq. Seçdiyimiz yolun çətin olduğunu, çətin olduğu qədər də şərəfli olduğunu heç yaddan çıxarmamğı düşünürük. Nədən ki, ən azından qəzetçilik işinin bir məslək olmasına alın yazısı qədər inanırıq. "Yeni yol"la müəyyən bir yerə, müəyyən bir hədəfə çatacağımız düşüncəsi də işi ələ aldığımızdan bu yana bizi tərk etmədi. Əski dönəmlərdə insanların yolu qutlu saydıqları, ona and içdikləri, onu hər bir çirkabdan qorumaq istədikləri də bizə bəlli olduğundan seçimimizin uğurlu alındığına şübhə etmirik.



"Yeni yol"un uğur qazanması, haqdan sapmaması təkcə onu araya-ərsəyə gətirənlərdən asılı deyil fikrini bir an da olsa unutmadığımızı söyləməkdən də özümüzü saxlaya bilmirik. Çox dəyərli oxucular, sizin hər birinizin gözünüzün bizim, yəni "Yeni yol"un, "Yeni yol"çuların üstündə olacağı gümanı da, bizə əlavə bir stimul verir. Bizim yoloğluluğumuz, üzüyolalığımız heç də mütiliyimiz, mağmınlığımız, hər saza oynayan olmamız anlamına gəlməməlidir. Biz hər halımızla doğru yoldan çıxmayacağımızı, yolumuzdan azmayacağımızı da qafamıza taxmışıq. "Yeni yol"çular doğrunun, gerçəyin, ən ümdəsi isə haqqın yanında olmağı düşünürlər. İstənilən halda haqqın təntənəsinə, haqqın qələbəsinə kiçicik də olsa əl uzatmağı özlərinin insanlıq borcu hesab edirlər.

"Yeni yol" oxucusuna gərəkli olanı, vacib olanı verməyi düşünərək, yola çıxıb. Dünyamızda baş verən istənilən hadisəyə münasibət bildirməyi, regoionda gedən proseslərə ayna tutmağı, ölkəmizin ən kiçik uğurunu belə könül xoşluğu ilə oxucusunun evinə daşımağı öz üzərinə götürmək niyyətindədir. Gələcək saylarında önəmli yazıların gürcücə versiyasına səhifələrində yer ayırmağı, yəni blinqvistik üsulla fikirlərini çatdırmaq niyyətini də gizlətmir. Biz yaşlı nəslin təcrübəsinə dayanaraq, gəncliyin tribunasına çevrilməyi də hədəflərimizdən biri sayırıq. "Yeni yol" oxucusu ilə fikir mübadiləsi aparmağı, onun istənilən fikrinə, münasibətinə diqqət göstərməyi özünün adi iş prinsipi hesab edir. Hə, dəyərli oxucular, niyyətimiz bundan ibarətdir. İndi isə yolçu "Yeni yol"da gərək, yola çıxma zamanıdır.

"Yeni yol"

## ABİTURİYENTLƏR HANSI PEŞƏLƏRİ SEÇİRLƏR

Gürcüstanda abituriyentlər daha çox iqtisadiyyat, biznes, hüquqşünaslıq, pisxologiya və jurnalistika ixtisaslarını seçirlər. Mütəxəssislərin fikrincə, bu cür seçimin səbəbi işə düzəlmə halında yüksək əmək haqqı alınmasının cəlbedici olması ilə bağlıdır. Bu il imtahanlara 40 mindən çox abituriyent hazırlaşır. Vahid milli imtahanların başlanmasına bir aydan da az vaxt qalır, hansı ixtisasın və ya hansı ali məktəbin liderlik etdiyi hələ bəlli deyil.

Milli imtahan mərkəzinin direktor müavini İva Mindadze bildirmişdir ki, 5-7 ildir populyar ixtisasların siyahısı dəyişmir. O, bəyan etmişdir: "Son illər iqtisadiyyat geniş yayılıb. Bu il hələ abituriyentlər hələ son seçimlərini etməyiblər, lakin bütövlükdə ixtisasların reytinqi dəyişməz olaraq qalır. Birinci yeri iqtisadi istiqamət tutur. Geniş yayılmış ixtisaslar arasında hüquqşünaslıq, psixologiya və jurnalistika da var. Bir qayda olaraq bu ixtisaslar üzrə müsabiqə də böyük olur. Qeyd etmək lazımdır ki, son illərdə mühəndis və aqrar ixtisaslara, eləcə də təbiət elmlərinə – kimya, fizika, və biologiyaya tələbat artıb. Bu istiqamətlərə marağın yaranması təhsil haqqı olmayan fakültələrin meydana çıxması ilə şərtlənir. Məlumdur ki, fakültələrin nüfuzu hər il dəyişmir.

Məsələn, on il əvvəl hüquq fakültəsi çox məşhur idisə, indi iqtisadiyyat məşhurluqda onu qabaqlayır. Informasiya texnologiyalarına da maraq artmaqdadır. Universitetlərə gəlincə, TDU, İlya Dövlət Universiteti, həmçinin Azad və Texniki universitetlər öndədir. Təhsil müəsissəsini seçərkən, yerlərin sayı və təhsil haqqının həcmi əsas rol oynayır. Çox vaxt dövlət universitetlərini seçirlər, çünki orada təhsil ucuz başa gəlir. Azad universitet, Qafqaz biznes məktəbi və Qafqaz universiteti kimi özəl universitetlərin də adını çəkmək istəyirəm".

Təhsil üzrə ekspert Simon Canaşiya "Rezonansi" qəzeti ilə söhbətində demişdir ki, əmək bazarı ilə universitetlərin nüfuzu həmişə bir-birilə uyğun gəlmir. S. Canaşiya qeyd etmişdir: "Fakültənin məşhurluğu ixtisasa olan tələbatın çoxluğu ilə deyil, işə düzəldikdə yüksək əmək haqqı verilməsi ilə şərtlənmiş ola bilər. Ixtisas seçimində iki səbəb əsasdır – işə düzəldikdə yüksək əmək haqqı ilə təminat və işə düzəlmə şansının yüksək olması. Ehtimal ki, başqa maraqlar da mövcuddur. Bu gün Gürcüstanda iqtisadi sahədə əmək haqqı yüksək olduğundan bu ixtisas daha nüfuzludur.

Bu sahədə mütəxəssislərin çoxluğu sahibkarların daha yüksək ixtisaslı kadrlar axtarmasına səbəb olur. Işə düzəlmək üçün artıq bakalavr diplomu kifayət etmir, buna görə də çoxları təhsillərini magistraturada davam etdirirlər. Burada da bir neçə kateqoriya mövcuddur.

Kimi magistraturaya daxil olur, kimi də öz ixtisası üzrə çalışmır və başqa sahədə işləməyə gedir"

## İRAKLİ BANDZELADZE: AGFM İLK AZƏRBAYCANDİLLİ GÜRCÜ RADİOSUDUR

Gürcüstanda ilk olan azərbaycandilli gürcü radiosu bu yaxınlarda fəaliyyətə başlayıb. Radio qısa zaman çərçivəsində Gürcüstanda yaşayan azərbaycanlıların kifayət qədər rəğbətini qazanıb. Qəzetimizin oxucuları üçün maraqlı olacağını nəzərə alaraq radionun yaradıcısı İrakli Bandzeladze ilə qısa söhbətimizi təqdim edirik.



A.Ə - Batano İrakli, Agfm radiosu haqqında müəyyən qədər məlumatımız var, lakin oxucularımıza radionun fəaliyyəti barədə sizin öz sözlərinizlə qısa məlumat verilsə, məncə, yerinə düşər. Oradan başlayaq ki, bu radionu yaratmaq qərarına necə gəldiniz?

İ.B - Əvvəlcə özümü təqdim edim, mən Agfm radiosunun direktoru İrakli Bandzeladzeyəm. Agfm radiosunun yaradıcısıyam. Azərbaycan dilində radio yaratmaq haqqında ideya məndə iki il əvvəl yarandı, lakin radionun özü 2014-cü ildən formalaşmağa başladı. Gürcüstanda yaşayan azərbaycanlıların demək olar ki, 80%-i dövlət dilini bilmir və buna görə də ölkədə baş verən hadisələrdən tamamilə xəbərsiz qalırlar. Elə bu səbəbdən də radio yaratmaq fikrinə gəldik. Gürcüstanda həyata keçirilən bütün gözəl lahiyələri Azərbaycan dilinə tərcümə edib, dinləyicilərə çatdırırıq. Agfm ilk azərbaycandilli gürcü radiosudur.

A.Ə - Radiodakı səsləndirilən proqramlar haqqında da qısa məlumat versəniz oxucularımız üçün maraqlı olar?

İ.B - Bizim maariflәndirici, əyləncəli, mədəni və məlumatlandırıcı proqramlarımız var. Efirdə müxtəlif lahiyələrlə işləyirik. Xüsusilə xəbərlər informasiya proqramını Azərbaycan dilində yayımlayırıq. Hər üç saatdan bir xəbərlərin əsas buraxılışını Azərbaycan dilində və hər saat başı isə qısa icmalını Azərbaycan və gürcü dillərində səsləndiririk. Burada ölkədə və xaricdə baş verən hadisələr işıqlandırılır. Radiomuzun həyata keçirdiyi ən əhəmiyyətli lahiyələrdən biri gürcü dilinin öyrədilməsi ilə bağlı lahiyədir. Gürcü dilinin öyrədilməsi üçün olduqca gözəl lahiyəmiz var. "Mənim Gürcüstanım" adlı gürcü dili dərsləri ilə gürcü dilində ən çox istifadə olunan, ən sıx-sıx rast gəlinən sözləri və ifadələri gürcü dilini bilməyən azərbaycanlılara müəyyən qədər də olsa yardım etməyə çalışırıq.

A.Ə - Batano İrakli, dinləyicilərin radioya münasibəti necədir?

İ.B - Gürcüstanda yaşayan bütün azərbaycanlıların radiomuza münasibətləri bir mənalı şəkildə yaxşıdır. Olduqca müsbət münasibət mövcuddur, çünki hər gün külli miqdarda telefon zənglərimiz, sosial şəbəkələrdən salamlarımız, məktublarımız, təşəkkürlərimiz olur. Həmçinin biz tez-tez regionlarda oluruq, azərbaycanlı əhali ilə görüşdüyümüz zaman görürük ki, onlar bu lahiyəni bəyənir və salamlayırlar. Təvazökarlıqdan uzaq olsa da, deyərdim ki, dinləyicilərimizin əksəriyyəti radio ilə bağlı müsbət fikirdədir. Radiomuzla əlaqə quran dinləyicilərdən bu vaxtadək heç bir narazılıq eşitməmişik.

A.Ə - Agfm radiosu Gürcüstanın hansı rayonlarında və hansı tezliklərdə yayımlanır?

İ.B - Bolnisi, Marneuli, Dmanisi, Tetrisxaro və ətraf ərazilər də 101.5, Rustavi, Qardabani, Tbilisinin əsas bölgələri, Ponicala, Ortacalada 100.6 dalğasında bizi dinləmək mümkündür.

A.Ə - Son olaraq Qardabanidə yeni yayımlanan azərbaycandilli "Yol "qəzeti də informasiya qıtlığını aradan qaldırmaq məqsədilə yaradılmışdır. Bu haqqda sizin fikirlərinizi bilmək də maraqlı olardı?

İ.B - Mən hər bir yeni lahiyənin başlanmasını salamlayıram. Fərqi yoxdur bu qəzet olsun, televiziya olsun,əsas odur ki, cəmiyyət məlumatlandırılsın. Dil maneəsinə görə məlumat vakumu var. Buna görə də bi regionlarda radioların, qəzetlərin , televiziyaların yaradılması vacibdir. Əhalinin 80-% baş verən hadisələri bir-birindən eşidir. Yeni qəzetin yaradılmasını salamlayıram, sevindirici haldır. Əlbətdə biz bu qəzetlə əməkdaşlıq edəcəyik və məlumat mübadiləmiz olacaq. Uğurlar arzu edirəm.

Söhbətləşdi:
A. Əliyeva
"Yeni yol"un əməkdaşı




## GÜRCÜSTAN POLİSİ 2014-CÜ İLDƏ 2012-Cİ İLƏ NİSBƏTƏN İKİ DƏFƏ ÇOX CƏRİMƏ YAZIB

Gürcüstan paturul polisi yol hərəkət qaydalarının pozulmasına görə 2014-cü ildə 1,6 mln cərimə yazıb. Gürcüstan DİN-nin bu məlumatını QHT "İnformasiya azadlığının inkişafı institutu" (İDFİ) yaymışdır.

Ötən il 1 591 959 cərimə yazılmışdır ki, bunun da 275 953-ü video-registrator vasitəsilə müyyən olunmuşdur.

QHT-nin məlumatına görə 2014-cü ildə cərimə olunan adamların sayı 1 316 006 nəfər olmuşdur ki, bu da 2012-ci ildəkindən iki dəfə, 2013-cü il göstəricilərindən isə 82 254 nəfər artıqdır. Video-registratorların məlumatları əsasında yazılmış cərimələrə gəldikdə isə onların sayı 2014-cü ildə 2013-cü il göstəricilərini 19 562 nəfər üstələyir. 2012-ci ildə videokameralar 140 432 inzibati hüquq pozuntusu qeydə almışdır.

"İnformasiya azadlığının inkişafı institutu"nda qeyd etmişlər ki, cərimələrin artması Patrul polis departamentinin yol hərəkəti qaydalarının pozulmasına nəzarəti nəzərəçarpan dərəcədə gücləndirməsi ilə əlaqədardır.

## BAŞ NAZİR GÜRCÜSTANA GƏLƏN TURİSTLƏRİN SAYI İLƏ FƏXR ETMİŞDİR

Gürcüstanın baş naziri İrakli Qaribaşvili əvvəlki 7 illə müqayisədə son 2,5 ildə xarici qonaqların sayının daha artıq olduğunu vurğulamışdır. O, hökumətin iclasında 2012-ci ilin oktyabrından 2015-ci ilin aprelinədək Gürcüstana gələn beynəlxalq sərnişinlərin sayının 13 500 000 olduğunu bəyan etmişdir. Baş nazir bu istiqamətdə kifayət qədər müsbət meyllərin olduğunu və hökumətin bunu daha da inkişaf etdirməli olmasını qeyd etmişdir. Iqtisadiyyat nazirliyinin Avropada, Çində fəal iş apardığını bildirmişdir.

Baş nazir bəyan etmişdir ki, yay boyunca mədəniyyət nazirliyi ilə birgə hazırlanmış xüsusi proqramın fəaliyyət göstərməsi planlaşdırılır.

Gürcüstanın iqtisadiyyat naziri Qeorqi Kvirikaşvilinin fikirincə, Gürcüstana gələn turistlərin sayının artması danılmazdır. Onun sözlərinə görə, doqquz bazarda Gürcüstan haqqında xüsusi reklam kampaniyası təşkil olunmuşdur.

Yanvar-may ayları ərzində ümumilikdə Gürcüstanda 1,83 mln turist olmuşdur ki, bu da ötən ilin göstəricilərindən 2% çoxdur. 2014-cü ilin yanvar-may aylarında Gürcüstana gələnlərin artım sürəti 5%-ə bərabər olmuşdur. Bu il isə gələnlərin sayı 2,5 dəfə və ya 2% aşağı sürətlə artmışdır.

Turizmin artım sürətinin azalması iki səbəblə bağlıdır. Bunlardan biri qonşu ölkələrdə və region ölkələrində iqtisadi vəziyyətin ağırlaşmasıdır ki, Rusiya, Ukrayna, Ermənistan və Azərbaycan vətəndaşları ötən illə müqayisədə istirahətə az pul xərcləyirlər.

Ikinci əsas səbəb isə Gürcüstan tərəfinin yeni viza qaydası tətbiq etməsidir ki, bir çox ölkənin vədandaşlarının Gürcüstana gəlməsi mürəkkəbləşmişdir. O cümlədən də İrandan gələnlər bu halla üzləşmişlər. Ötən ilin yanvar-may aylarında İrandan 19 000 nəfər gəlmişdirsə, bu il gələnlərin sayı 4 000 nəfər olmuşdur.

## 94 ÖLKƏNİN VƏTƏNDAŞLARI BİR İL ƏRZİNDƏ VİZASIZ GÜRCÜSTANDA OLA BİLƏCƏKLƏR

Gürcüstan hökuməti vətəndaşlarının vizasız Gürcüstana gələ və bir il müddətində Gürcüstan ərazisində ola biləcəyi ölkələrin siyahısını müəyyənləşdirmişdir.

Bundan başqa BMT-nın pasportu olan xarici vətəndaşlar da vizasız Gürcüstan ərazisində bir il müddətində olmaq hüququna malikdirlər. Həmçinin xarici vətəndaş xüsusi hallarda hökumətin qərarı ilə ölkəyə vizasız gəlmək və yerləşmək hüququ ala bilər.

Qərar Gürcüstan Qanunvericilik xəbərləri saytında dərc olunub və dərc olunduğu vaxtdan da qüvvəyə minib.

Vətəndaşları Gürcüstanda bir il müddətində vizasız ola biləcək ölkələrin siyahısı:

Avstraliya, Avstriya, Azərbaycan, Albaniya, Andorra, Antiqua və Barbuda, Argentina, Ermənistan, Barbados, Bəhreyn, Belarus, Belçika, Beliz, Bosniya və Hersoqovina, Bolqarıstan, Botsvana, Braziliya, Bruney, Böyük Britaniya, Böyük Britaniyanın dəniz arxası əraziləri, Macarıstan, Vatikan, Almaniya, Yunanıstan, Honduras, Danimarka, Danimarka krallığının əraziləri, Domnika, İsrail, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Qatar, Kipr, Kolumbiya, Kosta-Rika, Küveyt, Qırğızıstan, Qazaxstan, Latviya, Litva, Livan, Lixtenşteyn, Lüksemburq, Mavrikiy, Malayziya, Malta, Meksika, Monako, Moldova, Montoneqro, Yeni Zelandiya, Hollandiya, Niderland əraziləri, Norveç, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Panama, Polşa, Portuqaliya, Rumıniya, Rusiya, San-Marino, Səudiyyə Ərəbistanı, Seyşel adaları, Sent-Vinsent və Qrenadin, Serbiya, Sinqapur, Slovakiya, Sloveniya, ABŞ, Baham adaları Birliyi, Türkiyə, Türkmənistan, Tailand, Tacikistan, Ukrayna, Özbəkistan, Finlandiya, Fransa, Fransa əraziləri, Xorvatiya, Çexiya, İsveç, İsveçrə, El-Salvador, Ekvador, Estoniya, Cənubi Koreya, CAR, Yaponiya.

## QANUNSUZ SİLAHLI DƏSTƏLƏRƏ DAXİL OLMAQ QANUNLA CƏZALANDIRILACAQ

Gürcüstan parlamenti iyunun 12-də üçüncü oxunuşda qanunsuz silahlı birləşmələrlə bağlı cinayət sahələrini genişləndirərək, Cinayət məcəlləsinə düzəlişləri qəbul etmişdir. Eyni zamanda qanun layihəsi terrorçuluq məqsədilə sərhədlərin keçilməsini də cinayət kimi nəzərdə tutur.

Qanun layihəsinə görə, "qanunsuz birləşmələrə daxil olmaq və ya/ və iştirak etmək, bu cür birləşmələrin təşkil etdiyi təlimlərdən keçmək, adamları bu cür təşkilatlara daxil olmağa, iştirak etməyə və ya digər fəaliyyətlərə sövq etmək və ya təlim keçmək, adam toplamaq" 3 ildən 7 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

Qanun layihəsi qanunsuz birləşmələrə daxil olmaq və ya iştirak etmək məqsədilə məlumat materiallarının və ya rəmzlərin yayılmasına görə o halda üç ilədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutur ki, bu "açıq, birbaşa və əsalı şəkildə qanunlara qarşı təhlükə" yaradır. Əgər bu, qanunsuz birləşmələrlə əlaqədar cinayətlərə açıq çağırış təhlükəsi yaradırsa, iki ilədək azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır.

Qanun layihəsinə uyğun olaraq, kim könüllü şəkildə qanunsuz birləşmələrdə iştirakını, təlim keçməsini, qanunsuz birləşmələrə daxil olmaq üçün adam toplamaq və ya dilə tutmaq fəaliyyətini dayandırarsa, silahını təhvil verərsə cinayət məsuliyyətindən azad olunur.

Terror fəaliyyətində iştirak etmək və ya onu hazırlamaq və ya terror təlimləri almaq məqsədilə Gürcüstanın dövlət sərhədini keçmək və ya keçməyə cəhd etmək 6 ildən 9 ilədək azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır.

Terror təşkilatlarına daxil olması məqsədilə adamların dilə tutulması və ya terror fəaliyyətinin həyata keçirilməsi 5 ildən 10 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Qanun layihəsi terrorizmə çağırış və ya açıq şəkildə terrorizmi dəstəkləməyə görə də cəza nəzərdə tutur.

Cinayət məcəlləsinə Gürcüstanın milli təhlükəsizliyinə və konstitusiya quruluşuna qarşı yönəlmiş fəaliyyəti maliyyələşdirməyə və ya digər maddi yardım göstərməyə görə 6 ildən 10 ilədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutan maddə də əlavə olunmuşdur.

## GÜRCÜSTAN PARLAMENTİ ZORAKILIĞA ÇAĞRIŞLARA GÖRƏ QƏRAR QƏBUL EDİB

Gürcüstan parlamenti Cinayət Məcəlləsinə düzəlişləri təsdiq edərək, zorakılığa çağırış edənlərin cinayət məsuliyyətinə cəlb edilməsinə dair qərar qəbul edib.

Müxtəlif etnik, sosial və digər qrup insanlar arasında nifaq salmaq məqsədi ilə şifahi, yazılı və ya hər hansı digər şəkildə zorakılığa çağırış 400 saatlıq ictimai işlər cəzası və yaxud cərimə ilə cəzalandırılacaq.

Çağırışlar ağır bədən xəsarəti və ölümlə nəticələndiyi hallarda 5 ilə qədər həbs cəzası nəzərdə tutulur.



Cambul Məmmədli
cmemmedli@mail.ru

## İQTİSADİ BÖHRAN FONUNDA ÜMİD İŞARTILARI

Dinindən, irqindən və digər mənsubiyyətindən asılı olmayaraq, hər bir insanı ulu Yaradan şübhəsiz ki, xoşbəxt həyat sürmək üçün dünyaya gətirmişdir. Gerçək həyatda isə gəlin, görək bu, həqiqətən belədirmi, əgər deyilsə günahkarı kimlərdir? Sovetlər Birliyi dönəmini xatırlayanlar guman ki, mənimlə razılaşarlar: dövlətin bütün ərazisində məhdudiyyətlərlə dolu, qapalı, az qala məhbus həyat tərzinin hökm sürməsinə, dünyanın qabaqcıl dövlətləri ilə müqaisədə kommunist sisteminin texnoloji geriliyinə baxmayaraq, insanların həyatı daha mənalı, maraqlı və xoşbəxt görünürdü. Keçmiş Sovet Respublikaları içərisində Gürcüstan xüsusilə seçilməkdə idi; respublikalar arasında seçilmişi, ən "ərköyünü" də elə Gürcüstan idi. "Mən gürcüyəm" sözlərinin necə kəsərli olmasının, bu sözlərin təsiri ilə adamların sorğusualsız üstünlük əldə etmələrinin, heç bir zəhmət çəkmədən hörmət qazanmalarının dəfələrlə şahidi olmuşam! Düşünürəm ki, elə sizlər də buna şahidlik etmisiniz! Bu fakt özlüyündə, mənfi-müsbət cəhətləri kifayət qədər bol, təzadlı bir insan olan, eyni zamanda elə öz Vətənində də ən çox söyülən-öyülən İ.V.Stalin şəxsiyyəti ilə də sıx bağlıdır. Yeri gəlmişkən, bəzi qonşularımız onu özününküləşdirməyi çox istəsələr də, mənim qənaətimcə, Stalin təmiz qanlı, saf gürcüdür.

Fikrimcə, keçmiş sovet və dünya xalqlarının gözündə "gürcü" və "gürcüstanlı" imici sovet dönəmində pik səviyyəsini yaşamışdır ki, dövrümüzdəki imicilə heç cür yanaşı qoyula bilməz. Bu faktın müxtəlif səbəbləri vardır və onların içində ağırlıq qazananı çox guman ki, sovetlər süquta uğradıqdan sonra əksər hallarda ciblərini doldurub əhalini müflis, dilənçi kökünə salmaqla, ölkəni "gödən" üsulları ilə yönətən qüvvələrdir. Nəticədə sosial-iqtisadi sahədə vəziyyət getdikcə daha da pisləşir, bir tərəfdən kəndlər boşalır, əhalinin bir qismi ailəsini dolandırmaq üçün Yunanıstana, Rusiyaya, Türkiyəyə və b. ölkələrə üz tutur. Bu artıq başqa mövzudur. Orada onların əksəriyyəti alçaldıcı, qul zəhməti ilə qarşılaşaraq, çəkdikləri əməyin müqabilində cuzi qarşılığını alırlar. Gürcüstanın katalikos-patriarxı II İlyanın yaxınlarda səsləndirdiyi: "Bizim gənclər xarici ölkələrdə xidmətçilik etdiyi bir vaxtda, yadellilər bizim torpaqlarımızı ələ keçirməklə məşğuldurlar", -fikri də dediklərimizi təsdiqləyir.

Son illər əfv olunaraq azad edilən məhbusların "başucaldıcı" fəaliyyətini və bu fəaliyyətin ümumi imicə təsir edən nəticəsini isə təxmin etmək elə də çətin deyil gərək ki? Nə isə, hər dəfə ölkədə hakimiyyət dəyişikliyi baş verdikdə hakimiyyətə gələn adamların yağlı vədləri ilə əhalinin içi yeni-yeni ümidlərlə, arzularla dolur.Lakin zaman keçir, dünya maliyyə-iqtisadi böhranı fonunda bu ümidlər, arzular gerçəkləşmir ki, gerçəkləşmir. Məlumat üçün BMT-nin 2013-cü il Dünya xoşbəxtlik hesabatına görə, Gürcüstan 156 ölkə arasında 134-cü yeri tuturdu. Bu göstərici hər bir gürcüstanlı üçün ürək açan olmaya gərək ki?

Bu arada diqqətli oxucunun nəzərinə onu da çatdırım ki, gəzən şaiyələrə görə, cari ilin avqustun 3-də Tbilisiyə Avroviziya 2014-ün qalibi Konçita xanım-bəyin viziti planlaşdırılır ki, Gürcüstan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə, Allah qoymasa, həyata keçəcək bu "həsrətini çəkdiyimiz gün" dövlət büdcəsinə nə az, nə çox düz 12 000 000 lariyə başa gələcək. Bir az təvəzökarlıqdan uzaq olsa da, yeri gəlmişkən, qeyd edim ki, 2014-cü ildə həmin nazirlik müəllifi olduğum "Yüz böyük gürcünün həyatı və fəaliyyəti" kitabının çap edilməsi üçün 3 000 larini güc-bəla ilə ayırmışdı. Bu məbləğin bir neçə qatını bəzən hər hansı tədbiri keçirərkən yalnız spirtli içkilərə xərcləyirlər.

Fikrimcə, son dönəmlərdə iki vəd doğrudan da yerinə yetirilmişdir. Məktəblilərə dərsliklərin pulsuz paylanması və çoxlu çatışmazlıqları da olsa, əhalinin ümumi tibbi sığortası sadə insanların arzularının işartıları kimi görünür. Sosial sahədə bu cür islahatların həyata keçirilməsi davamlı olarsa inanırıq ki, əhalinin günü-güzaranı da yaxşılaşacaq. Xoşbəxtlik reytinqində ölkəmiz öz layiqli yerini tutacaq. Ümid edirəm ki, ölkəmizin Qərb seçimi yaxın gələcəkdə öz bəhrəsini verəcək.

Nə isə. Bir halda ki, həyat davam edir, deməli hər şeyin yerbəyer, yaxşı olmasına ümid də var. Ulu Tanrı kimsəni ümidsizləşdirib, ümidini əlindən almasın. Axı, ümidsizlik birmənalı şəkildə dünyadan qopmaqdır, bu isə elə birbaşa həyatın sonu, ölümün başlanğıcı mənasına gəlmək deməkdir.

## GÜRCÜSTAN ŞƏRQİ AVROPA VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ ARASINDA BİRİNCİDİR

Beynəlxalq qeyri-hökumət təşkilatı The World Justice Project 2015-ci il üçün qanunun aliliyi indeksini açıqlamışdır (The Rule of Law İndex 2015).

Gürcüstan regional reytinqdə Şərqi Avropa və Mərkəzi Asiya ölkələri arasında birinci olmuş, dünyada isə 102 ölkə içərisində 29-cu yeri tutmuşdur.

Xatırladaq ki, Gürcüstan ötən dövrlə müqayisədə mövqeyini iki pillə yaxşılaşdıraraq, bir neçə Aİ üzvü olan ölkələri, o cümlədən də İtaliya, Rumıniya, Yunanıstan, Xorvatiya və Macarıstanı geridə qoymuşdur.

Ən yüksək göstərici – 0,73 balı Gürcüstan korrupsiyanın olmamasına görə almışdır. Bu kriteriyə görə Gürcüstan 22-ci pillədə qərarlaşıb. Şəffaf idarəçilik göstəricisinə görə 29-cu, təhlükəsizlik və qayda-qanun göstəricilərinə görə 24-cü olmuşdur.

Bu il qanunun aliliyi reytinqinə Danimarka liderlik edir, ikinci və üçüncü yerləri isə müvafiq olaraq Norveç və İsveç tutur.

Qanunun aliliyi indeksi (The Rule of Law İndex) qlobal tədqiqatdır və qanunun aliliyinin universal prinsiplərinə əsaslananaraq hüquqi mühitin təmin edilməsinə görə dünya ölkələrinin reytinqini həyata keçirir. Bu, The World Justice Project beynəlxalq qeyri-hökumət təşkilatının münasib statistik məlumatlara və ekspertlərin geniş rəylərinin nəticələrinə əsaslanan metodikası nəzərə alınmaqla həyata keçirilir.

İndeks sosial və siyasi inkişafın müxtəlif pillələrində qərarlaşmış dünya ölkələrində hüquqi mühitin və qanunvericilik praktikasının səviyyəsini müfəssəl şəkildə xarakterizə edən 47 dəyişkənlik əsasında tərtib olunur.

Bütün bunlar səkkiz yoxlama göstəricisində birləşdirilmişdir:

Hakimiyyət institutlarının səlahiyyətlərinin məhdudlaşdırılması; korrupsiyanın olmaması; intizam və təhlükəsizlik; əsas hüquqların müdafiəsi; hakimiyyət institutlarının şəffaflığı; qanunlara əməl olunması; vətəndaş məhkəməsi; cinayət məhkəməsi.

## GÜRCÜSTANDA DÖVLƏT QULLUĞU İSLAHATI KEÇİRİLƏCƏK



Qeyri hökumət təşkilatlarının və beynəlxalq təşkilatların nümayəndələri Gürcüstanda dövlət qulluğu islahatını nəzərdə tutan qanun layihəsi ilə tanış olmuşlar.

Gürcüstan hökumət administrasiyasının rəhbəri Maya Çkitaşvilinin sözlərinə görə, dövlət xidməti islahatı demokratik dövlət quruculuğunun və səmərəli idarə etmənin əsas ünsürüdür.

Çkitaşvili bəyan etmişdir: "Bu hələ ilk ictimai müzakirədir. Düşünürük ki, bu proses çox səmərəli və maraqlı keçəcək. Bu dəfə biz qeyri hökumət təşkilatlarını və beynəlxalq təşkilatları dəvət etmişik. Biz həqiqətən onların şərhlərini, mülahizələrini eşitmək istəyirik".

Sonra isə parlamentin, Ali məhkəmənin, hökumət və qeyri hökumət strukturlarının üzvləri ilə görüşlər nəzərdə tutulur.

Dövlət qulluğu haqqında yeni islahatın qanun layihəsi iyunun 15-də elan olunmalıdır.

NATO-nun Tbilisidəki əlaqələndirici ofisinin rəhbəri Uilyam Laxyu bildirmişdir: "Öz əhəmiyyətinə görə dövlət qulluğu islahatı gələcək Gürcüstan üçün əsaslı islahatlardan biridir. Ölkənin uğurları, gələcək inkişafı onun uğur qazanmasından əhəmiyyətli dərəcədə asılıdır. Məhz buna görə NATO-nun peşəkar inkişaf proqramı bu layihəni digər donorlarla birlikdə dəstəkləyir".

## GÜRCÜSTAN HÖKUMƏTİ ELEKTRON MÜŞTƏRƏK ƏRİZƏ PORTALI YARADIR

Gürcüstan hökumət administrasiyası elektron müştərək ərizə portalı yaradır ki, onların da ən aktual olanları hökumətin iclaslarında müzakirə olunacaq. Bu barədə idarənin mətbuat xidməti məlumat yaymışdır.

Gürcüstanın baş naziri İrakli Qaribaşvili Tbilisidə keçirilən Avropa regional "Açıq idarəetmə əməkdaşlığı" konfransında bu təşəbbüs barədə danışmışdır. Bu təşəbbüs fransız nümayəndə heyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

İdarənin məlumatında deyilir: "Elektron müştərək ərizə portalı İchange.ge ölkənin idarə olunmasında cəmiyyətin iştirakını daha da artıracaq və hökumətin ictimai hesabatvermə vasitələrini gücləndirəcək".

Elektron ərizəni beş min nəfər imzaladığı təqdirdə məsələ baxılmaq üçün Gürcüstan hökumətinin iclasına çıxarılacaq.

Elektron portalın təqdimatı yaxınlarda baş tutacaq.

## BİRİNCİ KVARTALDA GÜRCÜSTANA BİRBAŞA XARİCİ İNVESTİSİYA 34% AZALIB

İlkin hesablamalara görə, 2015-ci ilin birinci kvartalında Gürcüstana daxil olan birbaşa xarici kapital 444 mln ABŞ dolları təşkil edib.

Ilkin hesablamalar əsasında Gürcüstanda 2015-ci ilin birinci kvartalında həyata keçirilən birbaşa xarici sərmayə 175 mln təşkil edib ki, bu da 2014-cü ilin birinci kvartalının göstəricilərindən 34% azdır.

2 saylı sektor diaqraması birbaşa xarici sərmayədar ölkələrin faiz dərəcəsini göstərir. Bu diaqrama əsasən birinci yeri 34%-lə Azərbaycan, ikinci yeri 15%-lə Türkiyə, üçüncü yeri 13%-lə Rusiya tutur.

Birbaşa xarici investisiyaların həyata keçirildiyi böyük sahələrin payı 2015-ci ilin birinci kvartalında 97% olmuşdur. Ən böyük birbaşa xarici sərmayə nəqliyyat və rabitə sahəsində həyata keçirilərək, 146 mln ABŞ dolları təşkil etmişdir ki, bu da ümumi birbaşa xarici sərmayənin 83%-i deməkdir. Ikinci yeri 24 mln ABŞ dolları ilə tikinti sektoru, üçüncü yeri isə 18 mln ABŞ dolları ilə dağ-mədən sənayesi tutmuşdur.

2015-ci ilin birinci kvartalında bank sektorunda həyata keçirilən birbaşa xarici sərmaya qoyuluşu azalmış və mənfi 18 mln ABŞ dolları təşkil etmişdir.

# SEPARATİZM BÖYÜK DÖVLƏTLƏRİN TƏZYİQ VASİTƏSİ KİMİ



**Dünyanın bir sıra ölkələri zaman-zaman separatizm problemi ilə üzləşir, onlardan bəziləri elə məhz konkret zaman içərisində həllinin tapır, bir qismi isə arzuolunmaz "miras" kimi çözülmək üçün sonrakı nəsillərə ötürülür. Çox təəssüf ki, Gürcüstan postsovet məkanı üçün xarakterik olan bu üzdəniraq mirasla baş-başa qalmiş dölətlər sırasındadır.**

Məlum olduğu kimi, hal-hazırda Abxaziya və Cənubi Osetiya regionları rəsmi olaraq Tiflisin nəzarət edə bilmədiyi əraziləridir. Münaqişənin xronologiyası və başvermə təfərrüati bəlli olduğu üçün məqsəd onun tarixçəsini yada salmaq yox, problemin Gücüstanın ərazi bütövlüyü çərçivəsində həlli yollarını araşdırmaqdan ibarətdir. İlk öncə nəzərə almaq lazımdır ki, Gürcüstan öz müstəqilliyini elan edərək, 1992-ci ildə BMT-yə tamhüquqlu suveren dövəlt kimi üzv qəbul edildikdə Abxaziya və Cənubi Osetiyanı onun sərhədləri daxilində mövcudluğu hüquqi baxımdan təsbit edilmişdir. Başqa sözlə desək dünya birliyinin qəbul etdiyi kimi, hər iki inzibati ərazi "de-yure" Gürcüstünanın yurisdiksiyası altındadır. BMT-yə üzv olan ölkələr bu təşkilatın nizamnaməsindən və beynəlxalq hüquq normalarından irəli gələn şərt və öhdəliklərə qeyd-sərtsiz əməl edəcəkləri barədə məsuliyyət daşıyırlar. Onlardan üzv ölkələrinin bir-birinin daxili işlərinə qarışmamaq, ərazi bütölüyünə hörmət etmək və s. kimi normaları qeyd etmək yerinə düşərdi.

Lakin Gürcüstanın ərazi bütölüyünü təhdid edən, separatizmə izdivac verən bir neçə dövlətin varlığı qeyd olunan problemin dinc yolla çözülməsinə nəinki mane olur, hətta onu həllolunmaz problemə çevirir. Məlum 2008-ci il avqust hadisələrindən sonra Rusiya Federasiyası tərəfindən Abxaziya və Cənubi Osetiyanin müstəqilliyinin tanınması, həmçinin bu gün hər iki qondarma dövlətlə çoxçeşidli müqvilələr imzalaması Gürcüstanı beynəlxalq birlik tərəfindən tanınınmış ərazi bütölüyünü bərpa etməsində çıxılmaz duruma salır. Şübhəsiz ki, Rusiya dünyanın hegomon və regionda siyasi maraqları olan dövlətlərindən biridir. Şimal qonşumuzun xarici siyasətində Qafqaz həmişə priaritet strategiya olmuşdur. Gürcüstanın isə Avropa ailəsinə, Qərb dünyasına inteqrasiya siyasəti yütrüməsi Rusiya-Gürcüstan münasibətlərinin düz mütəvidə inkişafına ilə tərs mütanəsüblik yaradır. M. Saakaşvili hakimiyyəti dövründə ölkəmizin qərbmeyilli xarici siyasətindəki müsbət mənada radikal dəyişikliklər rus-gürçü ilişkilərini neqativ baxımdan özünün pik nöqtəsinə çatdırmışdır.

Qərbin get-gedə basqısını üzərində hiss edən rəsmi Moskva, Rusya ilə həmsərhəd olan, keçmiş postsovet məkanında yaranmış dövlətlərdə süni şəkildə separatizm elementləri və münaqişə ocaqları, öz dövlət sərhədlərinin hüdularında bufer zonalar yaratmaqla NATO-nu özündən bir addım kənarda saxıamağa çalışır. Hal-hazırda Ukraynada baş verən hadisələr, 20 ildən artıqdır ki, davam edən və hələ də həllini tapmamış Moldvada Dnestryanı, Azərbaycanda isə Dağlıq Qarabağ münaqişələri deyilənlərə əyani sübutdur. Hələ də bu münaqişə ocaqlaında "status-kvo"nun saxlanmasını münaqişəyə cəlb olunmuş tərəflərin yox, məhz Moskvanın xeyrinə dəyərləndirmək olar. Gürcüstanla müqayisədə Rusiyanın siyasi, iqtisadi və hərbi üstünlüyünü qəbul etməli olsaq, haqqında bəhs etdiyimiz münaqişənin hərb yolu ilə həlli real görünmür. "Vahid Milli Hərəkət" partiyasının hakimiyyəti dönəmində buz bağlamış Rusiya -Gürcüstan münasibətləri "Gürcü arzusu" koalisiyasının hakimiyyətə gəlməsindən sonra yaranması ehtimal olunan ılıqlıqla sözügedən problemin çözülməsi mümkün görünürdü. Lakin hər iki dölət arasıda yalnız iqtisadi münasibətlərdə müəyyən yaxınlaşma bu ehtimalları doğrultmadı.

Avropanın bir parçası olmaq ideyası Gürcüstanda hələ XX əsrin əvvəllərində formalaşmışdır. Lakin sonralar SSRİ kimi tanınacaq dölət tərəfindən ölkəmizin işğalı bu istəyi 70 il təxirə saldı. Sovet totaltar rejiminin qılıncının hər iki yönünün rahat kəsdiyi dönəmlərdə belə gürcü ictimaiyyəti içərisində müttərəqi, azad və demokratik avropasayağı cəmiyyət modeli yaratmaq fikri də mövcud olmuşdur. 17 iyun 2014 cü ildə ölkəmizin Avropa Birliyinə assosiativ üzv qəbul edilməsi bu yollda qət edilmiş önəmli məsafə kimi vurğulanmalıdır. Ancaq bu hadisəyə Moskvanın cavabı da gecikmədi. Belə ki, 24 noyabr 2014-cü ildə imzalanmış və cari ilin martın 5-də ratifikasiya olunaraq qüvvəyə minmiş Rusiya və qondarma Abxaziya arasındakı "müttəfiqlik və strateji əməkdaşlıq" müqviləsini Kremlin rəsmi Tiflis və Qərbə adekvat bir mesajı kimi dəyərləndirmək olar.

Fikrimizcə, Gürcüstanın Avropa və Qərbə inteqrasiyasiyası, onun bir çox əhəmiyyətli insitutlarında təmsil olunması Abxaziya və Cənubi Osetiya probleminin həllinin tarixi məqamı yetişən zaman Tiflisin xeyrinə işləyən hal kimi qiymətləndiriləcək. Cünki Gürcüstanın öz ərazi bütövlüyünü bərpa etmək üçün ən tutarlı vasitə NATO-ya daxil olmaq istəyidir. 2008-ci ilin avqust ayında beş günlük rus-gürcü münaqişəsindən dərhal sonra Almaniyanın federal kansleri Angela Merkel Gürcüstanın NATO-ya üzvlük məsələsinin tezləşdirilməsini dəstəkləmişdir. Buna baxmayaraq, rus qazına böyük ehtiyacı olan Avropa və daha sonra Ukrynadakı məlum münaqişə ilə bağlı Rusiya ilə qlobal qarşıdurmadan ehtiyatlanan Şimali Atlantika Bloku Gürcüstanın bu təşkilata üzvlüyünün bir müddət təxirə salınmasına qərar verdi.

**Hər halda Abxaziya və Cənubi Osetiya problemini həll etmək üçün Gürcüstan diplomatiyanın bütün istiqmətlərindəki imkanlardan mümkün olduğu qədər istifadə etməli, ələ düşən fürsətlərdən maksimum dərəcədə yararlanmalıdır.**

Sahib MUSTAFA

# RUSİYA XİN GÜRCÜSTANA MÜNASİBƏT PLANLARINI AÇIQLAYIB

Rusiya XİN Gürcüstanla münasibətlərin tam nizamlanmasına rəsmi Tbilisinin abxaz və Cənubi Osetiya məsələlərində (Rusiya tərəfindən işğal olunmuş gürcü ərazilərinin müstəqilliyinin Tbilisi tərəfindən tanınmaq istənməməsi) tutduğu mövqeyin, eləcə də Aİ və NATO-ya inteqrasiya kursunun mane olduğunu bəyan etmişdir. Bu barədə RF XİN-nin 2014-cü ildəki fəaliyyətinin əsas nəticələri və perspektivdə orta təcili məsələlərə həsr olunmuş sənəddə məlumat verilir. Sənəd iyunun 8-də RF XİN-nin saytında dərc olunmuşdur.

"Rusiya-Gürcüstan əlaqələrinin tam normallaşmasını mümkünsüz edən təbii faktorlar Tbilisidə hakimiyyətin Abxaziya və Cənubi Osetiya üçün "işğal olunmuş ərazilər" statusundan imtina etmək istəməməsi", "eləcə də ölkənin Aİ və NATO-ya maksimal inteqrasiya kursunun saxlanmasıdır", – Rusiya XİN bəyan edir.

Bununla belə Rusiya xarici siyasət idarəsi qeyd edir ki, Moskvanın Suxumu və Sxinvali ilə münasibətləri "konstruktiv və etbarlılıq" xarakteri daşıyır. Rusiya XİN bəyan edir ki, Moskva "Abxaziya və Cənubi Osetiya Respublikalarında dövlətçiliyin təşəkkültapma prosesinin müdafiəsini, onların təhlükəsizliyinin və sosial-iqtisadi yüksəlişinin etibarlı şəkildə təmin edilməsi kursunu saxlamağa" çalışır.

Tbilisi ilə münasibətlərə gəlincə, Rusiya Fedrasiyası Xarici İşlər Nazirliyi humanitar və işgüzar əlaqələri inkişaf etdirməyi planlaşdırır.

Sənəddə deyilir: "Rusiyanın milli maraqları ilə ziddiyyət təşkil etməyən, ilk növbədə humanitar və işgüzar əlaqələrin genişləndirilməsi sahəsində ikitərəfli əlaqələrin qaydaya salınması siyasətini davam etdirəcəyik".

# ERMƏNİSTAN NÖVBƏTİ DƏFƏ GÜRCÜSTANIN ƏLEYHİNƏ ÇIXDI

BMT Gürcüstanın xeyrinə qətnamə qəbul etdi.

BMT Baş Assambleyasının iclasında qaçqınların Gürcüstanın separatçı Abxaziya və Sxinvali regionlarına qayıtmaq hüququ haqqında qətnaməni dəstəkləməyən ölkələrin siyahısı açıqlanıb, "Qruziya-onlayn"a istinadən xəbər verilir.

Qətnaməni 75 ölkə dəstəkləyib, 16-sı əleyhinə səs verib.

Gürcü qaçqınlarının öz evlərinə qayıtmasının əleyhinə Rusiya və Ermənistan da çıxış ediblər.

Bundan başqa Belarus, Kuba, Vyetnam, Laos, Nauru, Birma, Nikaraqua, Zimbabve, Suriya, Sudan, Burundi, Şimali Koreya, Maldiv adaları, Venesuela da sənədin əleyhinə səs veriblər.

Qətnamə Abxaziya və Sxinvali regionunda fasiləsiz humanitar fəaliyyətin həyata keçirilməsi, qaçqın və məcburi köçkünlərin mülkiyyət hüququnun qorunmasının əhəmiyyətini vurğulayır.

Sənəd separatçı regionlarda zorakı yolla həyata keçirilən demoqrafik dəyişiklikləri pisləyir və Cenevrə danışıqları iştirakçılarını qaçqınların öz evlərinə qayıtmaları üçün səylərini fəallaşdırmağa çağırır.

Bundan başqa, sənəd BMT Baş katibinə məcburi köçkünlərlə bağlı məsələ ətrafında hər il Baş Assambleyada məruzə ilə çıxış etməyi həvalə edir.

Kamuran



# SAFLIQ – SFİNKSDƏN QURTULMANIN TƏK YOLU

Sfinks (mifologiyada qadın başlı, aslan bədənli, qanadlı varlıq. Soruşduğu tapmacanın cavabını bilməyənləri öldürməklə məşğuldur – K.), – ağciyərlərin səbəbinə həyatda qalmağı bacaran tək varlıq – həqiqəti arxasındaca quyruğundan başı üstə sallayıb, görə bilmirlər: insan varlığı qorxuya və yanlışa daha səlis reaksiya verir, onu daha yaxşı görür, ancaq etiraz etməkdə çox çətinlik çəkir. Belə şəraitdə saf olmaq çox çətindir; bizə həmişə yalan söyləmə incəsənəti öyrədilir; bu yalan söyləmə incəsənəti elə dərinlərə işləyib ki, sağ əlin aldatdığını sol əl bilmir. Dar ağacından başı aşağı sallaqlı qalmaqdan həqiqətin başı gicəllənib; min bir əziyyət içindədir – beləliklə, həm həqiqət susdurulur və həm də tərəfdarları təhdid olunur.

Yadımıza salaq: Nədir saflıq? Nə deyildir?

Dönə-dönə bildirmək istəyirəm ki, saflıq gərək axmaqlıqla qarışdırılmaya. Saf olmaq, dürüstlüyün ən üstün təcəssümüdür: heç cürə ağızıayrıq olmaqla kəsişmir – mən dostlarımı aradakı fərqi görməyə dəvət edirəm.

Saflığın klassik mənası: Saflıq – hər kəsə ürəyi açıq olan, tez aldanan, tərtəmizliyinin ucbatından asanlıqla yoldan çıxan, namuslu olacaq deyə səfehliklər edən və narın bir lalə gülü kimi külək əsdiyi tərəfə əyilən "mələk" kimi bir adam mənasına gəlir.

Halbuki, saflığın mənaca ifadə quruluşu heç də belə deyil, sadəcə yozulubdur; eynilə sevgililər haqqında aparılan bəhslərin 4 və ya 5-ci dayanacağında onların oynaşa çevrildiyi kimi.

Klassik olan eyni zamanda yozulmuş olandır; yozulmuş həqiqət, ağıza alınıb çıxarılmış bir konfeti təzəymiş kimi sırımaqdır. Həmişə klassikdən əvvəl bir dövr olur, biz gərək oraya baxaq, hər şeyi orada axtaraq və ona əsasən də həqiqət anlayışımızı özümüz öz əlimizlə quraq, o ağırlıqda şeyi sırtımızdaca daşımağı bilək; və bunu da deməliyəm ki, həqiqət çılğına çevirəcidir. Bir dəfə həqiqətin hamar dərisinə toxunan adam bir daha klassik pambıq tarlalarında yaşaya bilməz.

Saflıq: ağlıkülək olmaqdır; ağlın hər şıltaqlığına qulaq verməkdən, bəzən anidən yağış altında ıslanmaq arzusu duymaqdır – çünki bəzən varlığın alışıb yanır. Yalnız, ıslanmağı istəmək həmişə odu keçirmək mənasına gəlmir; Bəzən su odun şiddətli keşməkeşliyini söndürmək yerinə, onu daha da alışdırır.

Saflıq eyni zamanda sərt, qarışıqsız olmaq, baltayarmazlıq deməkdir – və Sfinksi öldürməyin tək yolu da budur; Sfinks, ondan qorxduğunuzu bildiyi üçün sizə dişlərini qıcayır, yoxsa, təpik atsanız, başını yerə soxacaqdır.

Baltayarmazlığı saqın yanlış anlamayın, dürüstlüyü daha uyğun bir şəkildə ifadə edə bilmək üçün bu sözü işlədirəm; bu qətiyyən kobud olmaq, yersiz yerə yeri-göyü tar-mar etmək və ya bunu kimi bir şey deyil, bu, nə düşünürsənsə onu demək – ağlağız olmaq – və bilmədiyin halda, sadə bir şəkildə, "bilmirəm" deməyi özünə xor görməməkdir.

Di gəlin açıq danışaq:

-Biz, – söz bilir kimə deyilir – açıq sözlüyük.

-Öldürün onu, "o sadece bir pilli bebek".

***

Bir sərçəqəlblinin hekayəciyi(saflığa bir nümunə):

Ah, mənim sərçə qəlblim, nədir səni haldan çıxaran?

Uçmağı bilmək möhtəşəm deyilmi? – bəs niyə qəlbin belə cəld döyünür?

İndi anladım; məni qanadsız qılan bəlkə də budur – heç cürə anlaya bilmədim ki, havada süzmək üçün sərçəqəlbli olmalısan; qəlbin tir-tir əsməlidir; sevməlisən qəlbindən fışqıran o həyəcanlı şəlaləni və – bunu hayqıraraq deməyimə izin ver – əsməyən qəlb qəlb deyildir.

Biz – yüksəklik vurğunları – ayaqlarımızın altına sərilmiş dərin boşluğa baxdıqca, qəlbimizdən ilham fırtınaları əskik olmayacaqdır; Axı yüksəkləri sevənin baxışları iti olmalıdır, elə deyilmi, sərçəciyim? – yoxsa boşluğun doluluğunu necə görə bilərik ki?



Hacı BƏKİROĞLU
*hacibakir@mail.ru*

# İNSAN HƏYATƏNDA DİN

**İnsanın və cəmiyyətin mənəvi həyatının təməlini meydana gətirərək psixoloji və ictimai həyata əhəmiyyətli təsirlər göstərən din, danılması mümkün olmayan bir faktdır. Tarix, din-insan və cəmiyyət əlaqələrinin qalıqlarını və sənədlərini bizlərə təqdim edir. Din faktı insanlıq tarixində həmişə var olmuş, cəmiyyətlərin təşəkkülündə və dəyişməsində əhəmiyyətli təsir göstərmişdir. Dinə ideoloji baxımdan yaxınlaşaraq onu süni və gərəksiz bir şey kimi qəbul etmək onun gerçəkliyini ortadan qaldırmaz.**

Dinin cəmiyyət üzərində təsirləri olduğu kimi, cəmiyyətin də din üzərində təsirlərinin olması normaldır. Din duyğusu insanlıq təbiətində var olan bir duyğudur. Bu mənada din və inanc, insanı insan edən xüsusiyyətdir. Onu insan həyatından çıxarmaq mümkün deyil. Dinlər tarixi sahəsində aparılan araşdırmalar, az da olsa tanrı inancı olmayan insanlara rast gəlinməsinə baxmayaraq, hər cəmiyyətin bir dinə sahib olduğunu ortaya qoymuşdur. Tarixin müəyyən dövrlərində dinin gərəksiz olduğunu, insanların onsuz da yaşaya biləcəklərini müdafiə edən və dinin yerinə elmi qoymaq istəyən insanlar olmuşdur. Lakin bunda müvəffəqiyyətli ola bilməmişlər. Bu gün dünya əhalisinin çox böyük bir qisiminin bir dinə sahib olması bunu açıq bir şəkildə ortaya qoymaqdadır.

İçində yaşamaqda olduğumuz dövr, elm və texnikanın son bir neçə əsr ərzində başdöndürücü inkişafı və onların gətirdiyi müasir mədəniyyətin gərəkləri köklü dəyişmələrə səhnə olmaqdadır. Xüsusilə keçid dövrü yaşayan cəmiyyətlərin alışılmış həyat tərzləri elmi və texnoloji inkişaf, sənayeləşmə, şəhərləşmə, təhsil-tədris və kütləvi informasiya vasitələrinin yayılması kimi bir çox proseslərin dinamikliyi altında sarsılır və yeni şəkillərə bürünür. Psixoloji və ictimai həyatın mərkəzində yer alan dinin bu inkişaflardan təsirlənməməsi də mümkün deyildir.

Cəmiyyətin dəyişimində çox əhəmiyyətli bir yerə sahib olan din faktoru imani və əxlaqi dəyərlərin təməlini meydana gətirib hüzura, barışa və inkişafa qapı aça bildiyi qədər, bəzən də ictimai dəyişimi və inkişafı ləngidən, qarşıdurmaların dinamikliyini meydana gətirən bir faktor da ola bilər.

Dinin fitri və universal olması, onun qaynağını da gündəmə gətirməkdədir. Çünki insanı yaradan, eyni zamanda onun fitrətini də ən yaxşı biləndir. O halda fitrətə uyğun bir dinin, təməl əsasları və kökü etibarı ilə insanlığın tarixi ilə eyni yaşda olmasını da düşünə bilərik.

Din, insan həyatında əhəmiyyətli yerə malikdir. İnsanlıq tarixi qədər köhnə olan din, ilahi vəhy yoluyla gəldiyinə inanılan, insanı xoşbəxt etməyi hədəf alan ictimai bir təşkilatdır. Din, hədəfinə çatmaq üçün insanla insan, insanla kainat və insanla Allah arasındakı əlaqələri nizama salan qanunlar gətirmişdir. Beləcə insanın həm maddi (bədəni), həm də mənəvi (ruhi, zehini və ürəyi) ehtiyaclarını aradan qaldırmaq istəmişdir.

Din, insanı düşüncə baxımından yetkinləşdirməyi, davranışlarında ölçülü olmağı hədəf alar. "Allah, ölümü və həyatı, hansınızın daha gözəl davranışlarda olacağını sınamaq üçün yaratdı" (Mülk surəsi, ayə 2) ayəsi, dinin məqsədinin insanı əxlaqi yetkinliyə çatdırmaq olduğunu göstərməkdədir. Bu mənada din, insanın insan olduğunu fərq etməsinə, insanlığının tələb etdiyi məsuliyyəti daşımasına, yaradılışına uyğun dəyərlərə sahib olmasına, ağlını və digər qabiliyyətlərini ən yaxşı şəkildə istifadə edə bilməsinə, həyatını bilərək yaşayan şəxsiyyətli insan olmasına köməkçi olar.

Din, insanın məna axtarışına cavab verər. İnsanı həyatın məqsədi, öldükdən sonra nə olacağı və s. mövzularda məlumatlandırar. Bu mənada dinin təməl məqsədi, insanın həyatını mənalandırmada köməkçi olmaqdır. Quran, insanın həyatını mənalandıra bilməsi üçün oxumasını, düşünməsini, anlamasını və buna görə davranmasını istəyir.

Qərbdə din psixologiyası psixologiyanın quruluşuyla paralel olaraq davam etmiş, daha ilk dövrdə Vilhelm Vundt, Uilliam Ceyms, Ziqmund Freyd kimi psixologiyanın qabaqcıl adları din mövzusunu psixologiyanın məlumatları ilə şərh etmiş, elmi sahəyə daşımışlar.

İnsanoğlu üçün imtina edilməz və böyük ehtiyac olan din üzərində müxtəlif araşdırmalar aparılmışdır. Fərd və cəmiyyətlərin tarix boyunca dinsiz yaşamadıqlarına dair qərbli elm adamlarının və din tarixi araşdırmaçılarının çox gözəl fikirləri vardır. Alman filosofu və din tarixi araşdırıcısı Mar Müller (1823-1900): "İbadət ehiyacı insanla qardaşdır. Vəhşi və mədəni qövmlərdə, hətta mağaralarda heyvani bir həyat yaşayan insanlarda belə bu ehtiyac vardır. Geriyə doğru nə qədər gedərsək gedək dinsiz bir millətin yaşadığını görmürük. Gəzdiyimiz yerlərdə bir məbədə və ya bir məbəd qalığına rast gəlinməməsinə imkan yoxdur.."

**Qədim yunan əxlaqçılarından tarixçi Plutarx da: "Dünyanı gəzin divarsız, ədəbiyyatsız, qanunsuz, sərvətsiz şəhərlər tapacaqsınız. Lakin məbədsiz və məbudsuz bir şəhər tapa bilməyəcəksiniz" – demişdir. Din tarixi araşdırmaçı¬larından Benyamin Kostand isə bu mövzuda belə deyir: "Din hissi insan təbiətinə elə yerləşdiril¬mişdir ki, insan deyincə ağıla bir də din gəlməməsinə imkan yoxdur. Bu fikrin müxtəlif şəkildə təzahürü, fərqli dinlərin doğulmasına səbəb olmuşdur."**

# MÜSƏLMANLARIN MÜQƏDDƏS RAMAZAN AYI BAŞLAYIR

Miladi təqvimlə iyunun 18-də dünya müsəlmanlarının müqəddəs ramazan ayı başlayır. Xatırladaq ki, hicri təqvimi ilə ramazan ayı müsəlmanların müqəddəs hesab etdikləri üç aydan üçüncüsüdür. Islam dininə görə, ramazan ayında islamın müqəddəs kitabı olan Qurani-Kərim nazil olmuşdur.

Müsəlmanlar ramazan ayı boyunca islam dininin beş əsas şərtindən biri olan oruc tutmağa başlayırlar ki, bu da sübh çağından gün batışınadək davam edir. Bu ay ərzində hər bir müsəlman təkcə ac qalmaqla oruc tutmur, həm də dilinə, gözünə və nəfsinə hakim olmağa çalışıb, xeyrxah işlər görməyə cəhd edir. Müsəlmanlar bu ayda digər aylara nisbətən daha çox ibadətə üstünlük verirlər.

Bu ayın 27-ci günü qədir gecəsi adlanır ki, bu gecə boyunca müsəlmanlar toplu şəkildə dini mərasimlər icra edirlər. Qədir gecəsi miladi təqvimilə iyul ayının 13-ə düşür.

Ramazan ayı başa çatdıqdan sonra müsəlmanlar hicri təqvimilə şəvval ayının ilk üç gününü bayram kimi qeyd edirlər. Bayram günlərini islam əhli sülh və əmin-amanlıq içərisində keçirməyə diqqət yetirir.

Bəri başdan biz də "Yeni yol" olaraq bütün dünya müsəlmanlarını müqəddəs ramazan ayı münasibətilə təbrik edir, onların orclarının qəbul olunmasını uca Allahdan arzu edirik!

# RAMAZAN BARƏSİNDƏ SUALLAR VƏ CAVABLAR

**Oruc nə deməkdir?**

İslamın təməl ibadətlərindən biri də ramazan ayında oruc tutmaqdır. Oruc, Allahın razılığını qazanmaq məqsədilə, dan yerinin ağarmasından, günəşin batmasına qədər yemə-içmə və buna bənzər bədən istəklərindən uzaq durmaqdır. Oruc bədənlə edilən biribadətdir.

**Oruc kimlərə fərzdir?**

Ağıllı, yetkinlik çağına girmiş və sağlamlığı yerində olan müsəlmanlar oruc tutmağa borcludurlar. Uca Allah Quranda "Ey iman edənlər! Oruc sizdən əvvəlkilərə fərz qılındığı kimi, sizə də fərz qılındı" (Bəqərə 183) buyuraraq, oruc ibadətinin fərz olduğunuifadə etməkdədir.

**Orucun təməl şərtləri nələrdir?**

Oruc tutmaq üçün niyyət etmək, niyyətin başlama və bitmə zamanını bilmək, dan yeri ağarandan günəş batana qədər orucu pozan şeylərdən çəkinməklazımdır.

**Qəza orucu və fidyə nə deməkdir?**

Xəstələr, yolçular və çox yaşlı olub oruca dözə bilməyən şəxslər tutmaya bilərlər. Xəstə olan bir kimsə orucunu yaxşılaşdıqdan sonra tuta bilər. Buna "qəza orucu" deyilir. Bu Allahın hər bir insana güzəştidir. Səfərə çıxanlar da evlərinə döndükdən sonra oruclarını tutmalıdırlar. Ancaq istəyərlərsə səfər əsnasında da tuta bilərlər. Çox yaşlılar və ya yaxşılaşma ümidi olmayan xəstələr isə imkanları varsa fidyə verərlər. Fidyə; bir yoxsulun bir günlük yemək ehtiyacını qarşılayacaq miqdarda puldur. Fidyə ramazanın başlanğıcında verilə biləcəyi kimi, ortasında və ya sonunda da verilə bilər.

**Oruca niyyət necə edilər?**

Oruc tutmaq üçün niyyət şərtdir. Niyyət, axşam ya da sahurda yemək yedikdən sonra "Allah rizası üçün ramazan orucunu tutmağa niyyət etdim" deyərək edilir. Mütləq bu cümləni söyləmək şərt deyil. Zehindən keçirməklə də niyyət olar. Sahura qalxmaq da ayrıca bir niyyətdir.

**Oruc hansı halda pozulur?**

Orucu pozan hallar ikiyə ayrilir:

a) Həm qəza, həm də kəffarə tələb edən hallar:

Qida sayıla biləcək şeyləri yemək, içmək, siqaret, tiryək kimi kef verən maddələri istifadə etmək, ağıza girən yagmuru qəsdən udmaq, qar və dolu kimi maddələri bilərək yemək və cinsi münasibətdə olmaq.

Bunları oruclu olduğunu bilərək, qəsdən edən şəxsin həm 1 gün qəza, həm də ara vermədən 60 gün ard-arda kəffarə orucu tutması lazımdır.

b) Yalnız qəza etməyi tələb edən hallar:

1. Çiy düyü, xəmir, un və bir dəfədə çox miqdarda duz yemək (duz az miqdarda olarsa kəffarət lazımdır);



2. Pambıq, kagız kimi maddələri udmaq;
3. Gənziyə gedəcək şəkildə buruna dərman damlatmaq, qulağa yağ damlatmaq;
4. Agıza alınan suyu və ya agıza girən yagmur, qar kimi maddələri səhvən udmaq;
5. Unudaraq bir şey yedikdən sonra, orucunun pozuldugunu zənn edərək yeyib içmək;
6.Imsak vaxtının girmədiyini və ya iftar zamanının girdiyini zənn edərək, yanılıb bir şey yemək;
7. Həyat yoldaşına toxunma, öpmə surətiylə inzalolmaq (boşalmak);
8. Öz arzusu ilə siqaret tüstüsünü içinə çəkmək;
9. Öz arzusu ilə agiz dolusu qusmaq;
10. Dişlər arasında qalan noxud böyüklüyündəki qırıntıyı udmaq (daha kiçik olan qırıntı orucu pozmaz);
11. Dəri altına və ya damara yeridilən hər cür dərman;
12. Saqqız çiynəyib suyunu udmaq;
13. Ramazan orucu xaricində qalan digər orucları qəsdən pozmaq. Bu şəkildə pozulan oruclarda, yalnız bir gün qəza orucu tutmaq lazımdır.

Orucu Pozmayan hallar nələrdir?

1. Unudaraq bir sey yeyib içmək;
2. Çiçək peyvəndi kimi dəri üzərindən edilən peyvəndlər;
3. Qan aldırmaq (bədənə qan verilməsi isə orucu pozar və qəza tələb edər);
4. Gözə sürmə çəkmək və ya dərman damlatmaq;
5. Özündən inzal olmaq (bosalmak), qüsulsuz olaraq səhərləmək;
6. Duş qəbul edərkən qulağa su qaçması;
7. Istəmədən ağıza gələn qusuntuyu, yenə istəmədən geri udmaq;
9. Tüpürcəyi yığıb udmaq (orucu pozmasa da məkruhdur);
10. Həyat yoldaşı ilə öpüşmək;
11. Duş qəbul etmək (sərinləmək məqsədiylə duş alınması məkruhdur);
12. Dəstəmaz almaq xaricində agıza su almaq.

Orucu pozmayan şeylərin edilməsi qəza və ya kəffarət tələb etməz. Ancaq bu səbəblə orucun pozulduğunu zənn edərək yeyib içmək, ümumiyyətlə qəza, bəzən də kəffarət tələb edir.

Rəhim Abdullayev

# GƏNCLİK ÖZ İXTİSASINI SEÇİR

Hər bir sənət və ya peşə insanın yaşayış mənbəyi, dolanışıq vasitəsi olmaqla yanaşı, həm də insanın könlüncə olmalı, ürəyinə yatmalıdır. Ancaq bəzən deyilənlər tərsinə baş verir, insanın seçdiyi peşə onun ailəsinin minimum tələbatını belə ödəmir. Peşənin daşıyıcısı oğul-uşaq yanında başı aşağı, gözü kölgəli olur. Hətta bəzən utanc hissindən ölüm belə yaşamaqdan yaxşıdır deyib, günah olsa da, öz həyatına, şirin canına qəsd edərək, intihar yolunu seçir. Belə gerçəkliklə hamı bu və digər dərəcədə üzləşdiyindən, burada hər hansı statistik məlumatın verilməsi belə yersiz görünür. Məsələnin ikinci tərəfinə nəzər saldıqda mənzərə yenə də könülaçan olmur. Nədən ki, bəzən sənət-peşə seçimində yanlışlığa yol verilir və insan seçdiyi ixtisas üzrə işləməkdən imtina etib, başqa bir peşənin qulpundan yapışır. Və ilk seçdiyi ixtisasa sərf etdiyi vəsait, ən ümdəsi isə vaxt havayı gedir. Sonradan qazandığı peşədə isə uğur qazanmaq, fayda götürmək o qədər də asan olmur. Yəni insanımız Vəli aşından da olur, Əli aşından da.

Üstəgəl sevdiyin peşə səni adi dolanışıq vasitələri ilə təmin etməkdə acizdirsə yenə də paradoks yaranır. Yenə də ölünü qoyub, dirini ağlamalı olursan. O üzdən də gənc insanımız ixtisas seçimində yüz ölçüb, bir biçməyi unutmamalı, seçdiyi peşənin prespektivi barədə də düşünməlidir. Elə peşə seçməlidir ki, həmin peşəyə yiyələndikdən sonra həmin peşə onu yarı yolda qoymasın, peşiman atına mindirməsin. Sözarası onu da vurğulayaq ki, insan düzgün peşəyə yiyələnmədikdə onun yerinə yetirdiyi işin keyfiyyəti də yüksək olmur. Bundan əlavə məcburiyyət qarşısında günlərlə, aylarla, hətta illərlə ürəyincə olmayan bir işdə işləməklə insan öz sağlamlığını belə itirə bilir. Xəstə düşən belə adamın yarımcan vəziyyətdə gördüyü işin faydalı iş əmsalının necə olacağı barədə isə siz hökm çıxarın. Tibb elmi çoxdan sübut edib ki, insanın sevmədiyi bir peşəyə yiyələnməsi və uzun müddət həmin sahədə çalışması onun ömrünün qısalmasına nədən olur.

Orasını da qeyd edək ki, tarixin müxtəlif dönəmlərində çeşidli toplumlarda fərqli peşələr nüfuz qazanıb, önə çıxır. Müəyyən dövrdə üstün mövqeyə malik olan hər hansı bir sənət zaman keçdikcə nüfuzdan düşə bilir, yerini başqa bir peşə ilə dəyişərək üstünlüyünü itirə bilir. Adama bəzən elə gəlir ki, peşə seçimi də dəb kimidir. Müəyyən bir zaman kəsimində dəbə minmiş paltar kimi, sənət-peşə də nüfuza malik olur, bir müddətdən sonra isə gözdən düşür və az qala unudulur. Bir müddət keçdikdən sonra isə ola bilər ki, yenidən həmin sahədə canlanma, intibah baş versin. Yəni hər bir yenilik yaddan çıxmış köhnəlikdir prinsipi özünü doğruldur. Bəzən də düşünürsən ki, peşə seçimi zamanın diqtəsi ilə, cəmiyyətin tələbatı və ya sifarişi ilə baş verir. Bütün bu sadaladıqlarımızın yekunu olaraq onu qeyd edək ki, nə olursa olsun, ixtisas seçərkən çalışmaq lazımdır o, ürəyincə olsun və səni heç olmasa yaşayış minimumu ilə təmin edə bilsin. Ona görə də ixtisas seçimində diqqətli olmaq, özündən əvvəlki nəsl(lər)in təcrübəsinə əsaslanmaq, kiçik bir araşdırma aparmaq və bundan sonra son qərar vermək daha vacibdir.

Bəzən peşə seçərkən, ailə ənənələrinə əsaslanmaq da gözəl nəticələr verə bilir. Tarixən, yüzillər boyu eyni ailənin üzvlərinin eyni bir peşəni, eyni bir məsləyi davam etdirməsinə şahidlik etmək də mümkündür. Bu hal istər fiziki, istər də zehni əməklə məşğul olanlar arasında keçmişdə və elə indi də görünməkdədir. Bir ailənin əldə etdiyi bilik və təcrübə ailə daxilində bir məslək sirri kimi qorunub saxlanılır, nəsildən nəslə ötürülür. Və bunun müsbət nəticələrinin olması danılmaz bir gerçəklikdir.

Yuxarıda sənət-peşə seçiminin az qala dəb halını alması barədə sözarası bir neçə kəlmə danışmışdıq. Son dönəmlərdə bu özünü ali məktəblərdə ixtisas seçimi zamanı özünü daha bariz şəkildə büruzə verir. Son beş-on ildə demək olar ki, bir neçə ixtisas liderliyini qoruyub saxlayır. Bunların arasında isə iqtisadiyyat, psixologiya, jurnalistika kimi sahələr daha nüfuzlu peşələr sayılır. Tibbin müxtəlif bölmələrini də deyilənlərə əlavə etsək ixtisas seçimi mənzərəsini az-çox tamamlamış olarıq. Bunu rəsmi qrumların nümayəndələri də, təhsil sahəsində çalışan ekspertlər də bu və ya digər dərəcədə dilə gətirirlər. Elə bu günlərdə Milli imtahan mərkəzinin direktor müavini İva Mindadze də təxminən buna bənzər fikirlər səsləndirmişdir.

Əslində gənclərin məhdud sahələrə önəm vermələri də az-çox başa düşüləndir. O üzdən ki, onlar ixtisas seçərkən, gələcəkdə işlə təmin olunmağı, yaxşı pul qazanmağı ön plana çəkirlər. Və onların haqlı olmalarını söyləməkdən başqa yolumuz da yoxdur. Məsələnin bu tərəfi artıq aydınlaşdırılmış kimi görünə bilər. Problemin qaranlıq və ən düşündürücü tərəfi isə həyatımızın digər sahələrinə aid ixtisaslara gənclərin göstərdiyi etinasızlıqdır. Cəmiyyətə iqtisadçı, psixoloq, jurnalist lazım olduğu qədər, bəlkə bundan da artıq filosof, filoloq, tarixçi kimi ixtisas sahibləri də lazımdır. Azad rəqabət getdiyi bir zamanda isə adi vətəndaşların bu barədə düşünmək üçün nə vaxtları, nə də maraqları var. Bankların qarşısında insanların günü-gündən artan sıralarını görən gənclər necə olur olsun işlə təmin edə biləcək, yaxşı gəlir gətirəcək ixtisaslara üstünlük verməkdə, deyəsən, haqlıdırlar. Onların bu seçdikləri sahəyə bağlılıqları, istəkləri varmı, yoxmu kimi sualın cavabının tapılması isə artıq başqa bir məsələdir. Bunu isə gələcək yazılarımızda araşdırmağa cəhd edəcəyik.



Ali təhsil ocaqlarına qəbul imtahanlarının başlanmasına qısa bir müddət qaldığından bu yazının kiməsə yardımı toxunacağını ümid edirik. Və onu da ümid edirik ki, gənc nəsil öz seçimində təkcə maddiyyəti düşünməyəcək, əsas vurğunu mənəviyyatın üstünə salacaq.

A. MUXTAROĞLU



Afayət AFİQ

## KİTAB – BİZİM SIĞINA BİLƏCƏYİMİZ DÜNYA

İndi danışmaq istədiyim mövzu çoxlarımız üçün ürəkaçan olmayacaq, inanıram. Lakin bu onun danışılmamalı olduğunu göstərmir. Əslində, dərininə vardıqda hər birimizi narahat edə biləcək, bir məsələnin narahatlığı ilə bunları yazmaq qərarına gəldim. Uzatmadan başlayaq, məncə... Kitabsızlıq!

Kitabsızlıq günümüzün insanının ən böyük bəlalarından biridir. O dərəcədə ki, kitab mövzusunda nə eşitsək, nə görsək dərhal qulaqlarımızı, gözlərimizi qapayırıq. O bəlalardan ki, təsiri yavaş-yavaş, lakin çox ağır olur. İnsan oğlu, biz azərbaycanlılar isə daha çox kitabla arasına qurd yağı çəkilmiş vəziyyətindəyik. Aydındır, hər addımda problemlərlə qarşılaşdığımız, çətinliklərin hər yerdən qayır-qayır qaynaması hamımıza yaxşı bəllidir. O qədər çox ki, qeyd etdiyimiz müsibətlər, biz kitab oxumağa vaxt ayıra bilmədən, bunun düşüncəsinə belə yaxınlaşmadan daha böyük bir müsibətin qurbanına çevrilmiş oluruq. Müsibətimizin adı – kitabsızlıq.

Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamları ilə söhbət etmək deməkdir. Bu sözlər 16-cı əsrin sonu 17-ci əsrin əvvəllərində yaşamış fransız filosofu Rene Dekarda aiddir. Deməli, bunları oxuyarkən biz də, müəyyən mənada məşhur mütəfəkkirlə həmsöhbət oluruq. Nə qədər gözəl, nə qədər ümdə bir hissdir. Zamanda səyahət etməyin ən sərfəli, ən asan, ən çox qazandıran yoludur kitab oxumaq... İndiyə kimi hər kəs, əlinə qələm alıb nələrsə yazmağa çalışan hər kəs, kitab və kitabın önəmi haqqında nəsə söyləyib.

Tarix və təcrübə insanlığa, hər zaman, hər yerdə sübut edir ki, kitab millətin, eləcə də fərdlərin xilası üçün yeganə çıxış yoludur. Tarixi və mövcudluğu boyunca kitaba, kitab sevən insanlara dəyər vermiş cəmiyyət hər zaman, digərlərindən bir neçə addım öndə dayanıb, məntiqə əsaslanaraq bunun bundan sonra da belə olacağını tam əminliklə deyə bilərik.

Əfsuslar olsun ki, biz həm kollektiv, həm də fərd olaraq kitab mövzusuna hər zaman biganə yanaşmışıq. Ən ağrılısı isə odur ki, bunun acınacaqlı nəticələri ilə sıx-sıx qarşılaşmamıza baxmayaraq, kor biganəliyimizi hələ də davam etdirməkdəyik.

Ən yaxşı halda təhsil, oxumaq, mütaliə kimi mövzuları ikinci plana ataraq, onlara başqa planlardan sonrakı yerlərdə yer veririk. Oxuyanlarımız da yalnız başqa işlərindən artıq qalan zamanlarını kitaba həsr etməyə imkan tapır.

Çünki bu lazım deyil, çünki kitab vacib deyil, oxuyanlar nə edib, nə qazanıb ki? Çünki kitaba sərf edilən vaxt boşuna xərclənmiş vaxtdır. Nə yazıq ki, acı da olsa gerçək olan budur. Hər şeyə zaman ayıra bildiyimiz halda, hətta gərəksiz işlərə canımızı qoyduğumuz halda gündə beş sətir kitab oxumağı özümüzə qıymırıq. Özümüzə deyirəm, zira bir insanın oxuyacağı, əldə edəcəyi bilik hər zaman onun özünündür. Bununla bağlı kimdəsə şəkki-şübhə olduğuna inanmıram. Kiminsə oxuduğunun faydasını heç zaman başqa bir insan görmür. Yazıq insan, bu mal-mülk deyil ki, başqasına miras qoyub gedəsən, bu var-hal deyil ki, çəkib əlindən alsınlar. Bu, sənə bir dəfə verilən dünyada, ömür deyilən nemətdə özün üçün edə biləcəyin yaxşılıqların ən yaxşısıdır. Lakin etmirsən! Lakin etmirik!

İndi niyəsindən danışaq. Niyə etmirik? Nədir bizi xilasımızdan bu qədər uzaqlaşdırıb, uçurumumuza itələyən səbəb?

Bilməmək. Tək problemimiz, problemin və çarənin nə olduğunu bilməmək və ya adı çəkilən bu iki məfhumun yerini dəyişik salmaqdır. Xəbərsizik... Kitab oxumağın , təhsilin bizə nələr verə biləcəyindən, sadəcə olaraq xəbərsizik. Çünki bizlər, ali məktəb diplomunu belə qohum-qonşuya acıq vermək üçün alırıq. Biz bilik sahibi olmanın mexaniki proses olduğuna özümüzü əmin etmişlk. 4 -5 il müəyyənləşdirilmiş konkret bir zaman dilimində "oxumaq, diplom almaq", sonra da yaşamını təmin etmək etmək üçün "iş" tapmaq fikirlərini beynimizə yeritmişik.

Təhsilin insana verə biləcəkləri bizim nəzərimizdə bunlarla başlayıb, bunlarla bitir. Mexaniki və maddi tələblərin ödənilməsi. Bununla həyat qarşısındakı borclarımızdan qurtulduğumuzu düşünür, amma sən saydığını say, gör fələk nə pozur. Bəli, fələklə hesabımızın heç zaman uyğunlaşmamasının başlıca səbəbi,biz yazdıqca onun pozmasıdır. Mənəvi yüksəliş, mənən bütöv insan kimi formalaşmaq arzumuz olmayınca biz kök yox, ziqot üstündə dayanmağa davam edəcəyik. Lakin iş ondadır ki, biz ziqotun daşıya biləcəyi mamırlar yox, ağaclarıq, köksüz ağaclar. Hər fırtınadan asanca yıxıla bilərik. Ən yaxşı halda bir-birimizə söykənib müstəqillikdən, tamlıqdan, insanlıqdan yenə kənar qalacağıq. İstisnaların olduğuna şübhə etmirəm, mütləq vardır, ancaq çox az... Yazını oxuyacaq insanlardan kim yaxın ətrafında kitab oxuyanlar sırasında ardıcıl on nəfərin adını çəkə bilər?

Mənəvi zənginliyə çatmağın ən asan və ən zəmanətli yolu kitablardır. Bunu alimlər, mütəfəkkirlər hərəsi öz dilində söyləyərək, insanlara xilas yolunu göstərməyə çalışıblar... Fəqət, insanlarda görmək istəməmək, korluqdan məmnunluq duymaq kimi bir xüsusiyyət mövcuddur. Gerçəyə göz yummağı sevirik biz. Gerçəyin yükü ağırdır, hər çiyin daşıya bilməz. Kitab da, insanın tənha anında yol yoldaşıdır, onunla ağaca çıxan adamdır yeri gələndə... Gizlənib qoynuna sığına biləcəyi bir dünyadır. Odur ki, bacardıqca tez sağalmalıyıq kitabsızlıqdan... Bacardıqca tez...

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

YENİ YOL

yeniyol@mail.ru | İCTİMAİ QƏZET | "გზა" საზოგადოებრივი გაზეთი | №001 (01) | 17 iyun 2015-ci il

# TBİLİSİDƏ BEŞ ÖLKƏNİN YAZARLARININ GÖRÜŞÜ KEÇİRİLİB



Mayın 18-də Tbilisidə - Gürcüstan Elmlər Akademiyasının böyük salonunda Azərbaycan-Gürcüstan "Varlıq" Mədəniyyət Mərkəzinin və AYB-nin Gürcüstan bölməsinin təşkilatçılığı ilə beynəlxalq poeziya bayramı keçirilib. Tədbirdə azərbaycanlı yazarlarla birgə, Gürcüstanın, Türkiyənin, Şimali Kipr Türk Respublikasının, İraqın Kərkük vilayətinin və Bolqarıstanın bir çox tanınmış şair-yazıçıları, alim-türkoloqları iştirak və çıxış ediblər. Tədbiri "Varlıq" Mədəniyyət Mərkəzinin və AYB-nin Gürcüstan bölməsinin rəhbəri Rafiq Hümmət açaraq, qonaqları salamlayıb, yazarlar arasında görüşlərin daha tez-tez keçirilməsinin vacibliyini vurğulayıb, sonra isə çıxış etmək üçün sözü xarici ölkələrdən gəlmiş yazarlardan ibarət nümayəndə heyətinin rəhbəri, KİBATEK-in (Beynəlxalq Kipr, İraq, Balkanlar, Avrasiya Türk Ədəbiyyatı Kurumu) sədri Fəyyaz Sağlama verib. F. Sağlam öncə İştirakçıları salamlayıb, rəhbərlik etdiyi qurumun fəaliyyətindən bəhs edib və özünün rəhbərlik etdiyi on nəfərlik heyəti iştirakçılara təqdim edib. O, bu görüşdən çox məmnun olduğunu və gələcəkdə belə tədbirlərin intensiv keçirilməsi üçün əlindən gələni edəcəyini söyləyib.

Görüşdə çıxış edən Gürcüstan Yazıçılar İttifaqının sədri Makvala Qonaşvili də hər kəsi salamladıqdan sonra, özündən əvvəlki çıxışçıların fikirləri ilə həmrəy olduğunu bildirib və gələcəkdə birgə görülə biləcək işlərdən və qarşılıqlı əməkdaşlıqdan danışıb.

Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı səmimi münasibətlərdən və daim yüksələn xətlə inkişaf edən əməkdaşlıqdan danışaraq, ədəbi-mədəni sahədə belə tədbirlərin keçirilməsinin xalqlar arasında dostluq və əməkdaşlığa təkan verdiyinə diqqət çəkib və ilk addım olan bu görüşün gələcəkdə geniş xarakter alacağına ümid bəslədiyini ifadə edib.

Pedaqoji elmlər namizədi, professor Mahmud Xubanlı, ağsaqqal yazıçılar Emin Elsevər və Əli Abbas Azərbaycan-Türkiyə-Gürcüstan ədəbi əlaqələrinin keçmişindən və indisindən söz açaraq, bu münasibətlərdəki çatışmazlıqlardan və perspektivlərdən sözhbət açıblar.

İraq-Kərkük Mədəniyyət Dərnəyinin qurucu rəhbəri Şəmsəddin Kuzəçi Tbilisidə olmasından və burada azərbaycanlı yazar qardaş-bacıları ilə görüşündən olduqca məmnun qalmasından, İraq türkmənlərinin Azərbaycan türkləri ilə eyni qanı daşımasından, Gürcüstanda yaşayan yarım milyon soydaşımıza qucaq dolu salamlar gətirməsindən vəcdlə danışıb.

Sonra xarici ölkələrdən gələn qonaqlar təmsil etdikləri təşkilatlar adından Rafiq Hümmətə ədəbi-mədəni əlaqələr sahəsində göstərdiyi xidmətlərə görə mükafatlar, təşəkkürnamələr təqdim etmiş və kitablar, başqa hədiyyələr vermişlər. Gürcüstanda bir çox görkəmli azərbaycanlı yazarların yaşayıb-yaratdığını dilə gətirən Rafiq Hümmət, təkcə yaşadıqları ölkədə deyil, ümumən Türk dünyasında onlara diqqətin artırılmasının vacibliyini qeyd edərək, qonaqlara bu gözəl görüş üçün təşəkkür edib və öz növbəsində onlara rəhbəri olduğu qurumlar tərəfindən nəşr olunmuş bir çox kitabları – Azərbaycan və gürcü dillərində "Koroğlu", "Min bir bayatı", "Ədəbi Gürcüstan", "Hekayələr və nağıllar", "Yüz böyük gürcünün həyatı və fəaliyyəti" və s. hədiyyə edərək, "Varlıq" Mədəniyyət Mərkəzi adından KİBATEK-in rəhbərinə Təşəkkürnamə təqdim edib.

Tədbirdə çıxış edən "Qarapapaqlar" jurnalının redaktoru Akif Xansultanlı bu görüşdə istedadlı gənc yazarların iştirakından daha çox məmnun qaldığını bildirib, belə tədbirlərin gənclərin yaradıcılığına ciddi stimul verəcəyinə inandığını dilə gətirib.

Sonra qonaqlardan Şükrü Aydın, Ayişə Tural, Mövlud Kaplan, Güzin Onralkan, Şəmsəddin Kuzəçi, Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı yazarlardan Allahverdi Təhləli, Səadət Buta, Fatma Aslan, Osman Əhmədoğlu, Şövkət Dağlarqızı, Ziyadxan Əhmədov, Afiq Muxtaroğlu, Güllü Tomarova, gənc istedadlardan Vaqif Səyyah, Vüqar Vəkiloğlu, Afayət Afiq, gürcü şairlərdən Quri Otobaia, Zaza Suyaşvili və başqaları poetik nümunələr səsləndirmişlər.

Gürcüstan Baş nazirinin milli məsələlər üzrə müşaviri Savalan Mirzəyev, Barış və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyinin rəsmisi Zaur Dargallı, Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı Elcan İmamverdiyev, "Gürcüstan" qəzetinin redaktoru İslam Əliyev, Kvemo Kartli-Borçalı qubernatorluğunun və Rustavi meriyasının məsul işçiləri Soso Pirveli və Bəhram İsayev, Gürcüstan parlamentinin sabiq deputatı Ramin Bayramov, AzərTac-ın, APA-nın, İnteraz TV-nin Gürcüstan təmsilçiləri, başqa media işçiləri, Azərbaycan mədəniyyətinin coşqun təbliğatçısı Tamar Lamparadze, "Varlıq" Mədəniyyət Mərkəzinin sədr müavini Cambul Məmmədli, QHT nümayəndələri, müxtəlif gənclər təşkilatlarının təmsilçiləri, bölgələrdən şairlər və ədəbiyyatsevərlər tədbirdə iştirak ediblər.

Sonda Feyyaz Sağlam bu gözəl görüşün təşkilində çəkdiyi böyük zəhmətə görə Rafiq Hümmətə təşəkkür edərək, onu bu ilin dekabrında Türkiyədə keçiriləcək beynəlxalq ədəbiyyat simpoziumuna dəvət edib. Görüş iştirakçıları xatirə şəkilləri də çəkdiriblər.

H. Anar

# YENİ NƏŞRLƏR

## ELMURAZ KÖÇƏRİNİN YENİ KİTABI




İstedadlı şair Elmuraz Köçərinin ikinci – "Mənsiz ötən günlərim" şeirlər toplusu işıq üzü görmüşdür. Şairin kitabı Tbilisidəki "Varlıq" Mədəniyyət Mərkəzi və Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsi tərəfindən nəşr olunmuşdur. Kitab 2015-ci ildə Tbilisidə "Universal" nəşriyyatında çapdan çıxmışdır. Kitabın nəşrinin rəhbəri və redaktoru şair Rafiq Hümmətdir. R. Hümmət həm də kitaba ürəkdən gələn bir ön söz də yazmışdır ki, burada da Elmuraz Köçərinin şeirləri və eləcə də şəxsiyyəti çox ustalıqla açılaraq, oxuculara təqdim olunur.

Elmuraz Köçəri ədəbiyyatımızın Gürcüstanda yaşayıb-yaradan istedadlı nümayəndələrindən biridir. Onun lirik şeirləri özünün poetikliyi ilə oxucu qəlbinə yol tapa bilir. Elmurazın şeirlərində müasir insanın qayğıları, onun mənəvi-psixoloji çırpıntıları poetik dillə oxucuya çatdırılır. Şair hansı mövzuya müraciət edir etsin öz səmimiliyini qoruyub saxlaya bilir. Elmuraz Köçərinin poetik məni istənilən halda uşaq paklığı ilə oxucunun qarşısında boy verib görünə bilir.

Elmuraz vətəndaş şairdir. Onun şeirlərində biz Vətənin hər daşının, hər qayasının poetik obrazı ilə qarşılaşırıq.

Xatırladaq ki, bundan əvvəl Elmuraz Köçərinin "Quşlar köçə hazırlaşır" adlı şeirlər toplusu oxucuların ixtiyarına verilmişdir.

## "UĞUR" DƏRGİSİNİN YENİ SAYI ÇAP OLUNUB




Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatının orqanı olan "Uğur" dərgisinin yeni, 42-ci sayı işıq üzü görüb. Jurnalın əməkdaşları ənənələrinə sadiq qalaraq bu nömrədə də bir-birindən maraqlı yazılarla oxucunun qapısını döyüb, onun könül dünyasını zənginləşdirmək istəmişlər.

Dərginin bu sayında Hacı Bəkiroğlunun "Hz. İbrahimin duası, Hz.

İsanın müjdəsi Hz. Məhəmməd Mustafa" və Ahmet Taşgetirenin "Nümunə və öndər şəxsiyyət" yazısında peyğəmbərimizin özündən əvvəlki peyğəmbərlər tərəfindən müjdələnməsindən bəhs olunur.

Rüfət Şirinovun "Peyğəmbəri unut(ma)maq", Ali Riza Temelin "Hz. Peyğəmər və insan qüruru" və Hacı Arif Heydəroğlunun "Peyğəmbəri sevirsənsə…" başlıqlı yazılarında peyğəmbərimizin fəzilətlərindən bəhs olunur.

"Uğur"un bu sayında Elsevər Əhmədovun "Nəsihət etməyin ədəbi", Nurlan Məmmədzadənin "Bir üçün, birlik üçün canı fəda etmək", Ali Çinarın "Tövhid – ürəyi yalnız Allaha həsr etmək"dir yazıları da öz oxunaqlığı ilə diqqəti cəlb edir.

Osman Nuri Topbaşın "Xeyirli ümmət" və Sedat Dəmirin "Duada təvəssül" məqaləri də, fikrimizcə, dindarların ürəyincə olacaq.

Dərgi bu sayında önəmli tarixi hadisələrdən – 9 aprel faciəsi, 26 may Gürcüstanın və 28 may Azərbaycan Respublikasının müstəqillik günlərinə aid materiallara da səhifələr ayırıb.

Bu sayda "Uğur"un səhifələrində A. Qurbanovun, H. Bəkiroğlunun, E. Əhmədovun, R. Abdullayevin müxtəlif səpgili məqalələrini də çap edib. Bundan başqa xeyli informasiya xarakterli yazılar da jurnalın səhifələrini bəzəyir.

**Təsisçi:** "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

**Redaktor:** Afiq Muxtaroğlu

**Yayım direktoru:** Hacı Bəkiroğlu

Qardabani şəh., Kolxoz küçəsi 4
Əlaqə üçün:
+995 599 54 12 92
E-mail: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.

Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.

Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.

Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.